Azərbaycan Respublikasının
Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

“Ateşgah İntellektual Oyunlar Klubu”
İctimai Birliyi

“Nə? Harada? Nə zaman?”
Klublarının Beynəlxalq
Assosiasiyası


# “Nə? Harada? Nə zaman?” Məcəlləsi

---


“Nə? Harada? Nə zaman?”
Klublarının Beynəlxalq Assosiasiyası

Turnir Komissiyasının Qaydaların
unifikasiyası üzrə Altkomissiyası

Etika Komissiyası


*(rus dilindən tərcümə)*


Bakı-2013

Bu broşur Azərbaycan Respublikasının
Prezidenti yanında Qeyri-Hökumət
Təşkilatlarına Dövlət Dəstəyi Şurasının
maliyyə yardımı ilə nəşr edilmişdir.

“Nə? Harada? Nə zaman?” Məcəlləsi *(rus dilindən tərcümə),* Bakı-2013, 80 səh.

Bu nəşr ilə oxuculara təqdim edilən Məcəllə intellektual oyunlar hərəkatının əlaqələndirici beynəlxalq təşkilatı olan “Nə? Harada? Nə zaman?” Klublarının Beynəlxalq Assosiasiyasının Turnir Komissiyasının Qaydaların unifikasiyası Altkomissiyası və Etika Komissiyası tərəfindən ilk dəfə 2003-cü ildə açıqlanmış və 2008-ci ildə yeni redaksiyada dərc edilmiş (bax. **http://mak-chgk.ru/rules/codex/**) oyun qaydalarıdır. Məcəllə “Nə? Harada? Nə zaman?”oyunun gedişində yaranan əksər vəziyyətləri və oyunun təşkilinin təfərrüatlarını nəzərdə tutur. 3 hissə, 13 fəsil, 6 əlavədən ibarət olan Məcəllə oyunun iştirakçıları, oyun üçün materiallar və avadanlıqlar, oyunun formatı, yarışlarda hakimlik, yekunların hesablanması, cavabların sayılma prinsipləri, apellyasiya, intizam tənbeh tədbirləri, yarışların təşkili, oyunçuların turnirlərdə iştirakı, yüksək səviyyəli yarışların keçirilməsi üzrə tövsiyələr, cavabların düzgünlüyünün qiymətləndirilməsi nümunələri, oyun etikası və bu kimi mühüm məsələləri tənzimləyir. Ümid edirik ki, Məcəllənin hazırkı nəşr “Nə? Harada? Nə zaman?” intellektual oyunlarının iştirakçılarına, yarış təşkilatçılarına, intellektual klub təşkilatçılarına oyun prosesi və təşkilatçılq üzrə konkret suallarına cavab tapmaqda yardımçı ola biləcək metodik vasitəyə çevriləcəkdir.

Nəşr Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2013-cü ildə QHT layihələrinin maliyyələşdirilməsi müsabiqəsi üzrə qalib gəlmiş “Nə? Harada? Nə zaman?” intellektual oyununun Məcəlləsinin tərcümə və nəşr edilməsi” layihəsi çərçivəsində “Atəşgah İntellektual Oyunlar Klubu” İctimai Birliyi tərəfindən hazırlanmışdır.

Təşkilat rəhbəri: **Yetirmişli İlkin Qurban oğlu**

Layihə rəhbəri: **Məhərrəmov Oktay Əvəz oğlu**

Redaksiya heyəti: **Məhərrəmov Oktay Əvəz oğlu,**
**Atalızadə Aqşin Sabir oğlu,**
**Eminov Fuad Fərhad oğlu**

© “Nə? Harada? Nə zaman?” Klublarının Beynəlxalq Assosiasiyası, 2008.
© “Atəşgah İntellektual Oyunlar Klubu” İctimai Birliyi (tərcümə), 2013.

Azərbaycan Respublikasının
Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

"Ateşgah İntellektual Oyunlar Klubu"
İctimai Birliyi

"Nə? Harada? Nə zaman?"
Klublarının Beynəlxalq
Assosiasiyası

# "Nə? Harada? Nə zaman?" Məcəlləsi

---

"Nə? Harada? Nə zaman?"
Klublarının Beynəlxalq Assosiasiyası

Turnir Komissiyasının Qaydaların
unifikasiyası üzrə Altkomissiyası

Etika Komissiyası

*(rus dilindən tərcümə)*

Bakı-2013

# Ön söz



Hörmətli oxucu,

"Nə? Harada? Nə zaman?" oyununun idman versiyası ötən əsrin 80-ci illərində meydana gəlmişdir. Həmin illərdə televiziya oyunu Sovet İttifaqında çox populyar idi. Həmin populyarlığın nəticəsi kimi müxtəlif şəhərlərdə özlərini bu oyunda sınamaq istəyən insanları bir arada birləşdirən yerli klublar yaranmağa başlamışdı. Bilicilər isə bir-biriləri ilə yarışmağa can atırdılar. Qısa zaman kəsiyində onlara aydın oldu ki, oyunun televiziya modeli onlar üçün münasib deyil, belə ki, orada komandalara müxtəlif suallar ünvanlanır. Bir komandanın digərindən daha yaxşı nəticə göstərdiyini təyin etmək mümkün olmurdu, çünki bir komanda üçün suallar sadə, digəri üçün isə daha mürəkkəb ola bilərdi. Bu məsələnin başqa formatda həll yoluna ehtiyac duyulurdu – bir neçə komandaya eyni sualların ünvanlanması. Növbəti ideya ondan ibarət oldu ki, bütün komandalar eyni vaxtda yarışsın və sualların cavabları isə xüsusi blanklarda yazılı formada təqdim edilsin. Oyunun belə müxtəlifliyi isə "Nə? Harda? Nə zaman?" oyununun "idman versiyası" adlanmağa başlandı. Bu həqiqətən də idman oyunu hesab edilməlidir, belə ki, oyunun iştirakçıları bərabər şərtlər daxilində yarışırlar.

15 il ərzində bu oyun aktiv şəkildə inkişaf etdı. İlk əvvəl şəhərlərarası, daha sonra isə beynəlxalq turnirlər keçirilməyə başlandı. 1989-cu ildə müxtəlif şəhərlərdəki klubların Mariupol toplantısında "Nə? Harada? Nə zaman?" Klublarının Beynəlxalq Assosiasiyası – KBA-nın əsası qoyuldu. Geniş miqyaslı turnirlər onun himayəsi altında keçirilməyə başladı. 90-cı illərin sonlarında artıq dünya çempionatının keçirilməsi məsələsi gündəmə gəldi.

Elə həmin vaxtlarda qəti olaraq aydın oldu ki, sürətlə müstəqil bir idman növünə çevrilməyə başlayan bu oyun dəqiq və birmənalı qaydalar olmadan mövcud ola bilməz. Güman etmək olardı ki, burada çətin nə var ki? Lakin, həmin zamanlar oyunun qaydalarında müxtəliflik hökm sürürdü. Müxtəlif hallarda sualların cavablarının doğruluğu tamamilə fərqli qaydada qiymətləndirilirdi, apellyasiyalar müxtəlif mübahisələr doğururdu. Masa arxasına hansı sayda oyunçunun olması kimi sadə məsələlərdə də bəzən müxtəlif ölkələrdə fərqli yanaşmalar olurdu. Elə məhz bu səbəbdən KBA tərəfindən bütün fikir ayrılıqlarını müəyyən

etməyə və onları ümumi məxrəcə gətirməyə xidmət etməli olan qaydaların unifikasiyası üzrə xüsusi komissiya yaradıldı. Mənə isə bu komissiyanın işinə rəhbərlik etmək nəsib oldu. Mən komissiyanın işinə təcrübəli və peşəkar oyunçuları və təşkilatçıları cəlb etdim. Komissiyanın tərkibi dəfələrlə dəyişsə də Vadim Karlinski, Yuri Vımenets, Anton Qubanov və Roman Nemuçinski bir neçə il ərzində xüsusi fəallıqla komissiyada işləmişdilər. NHN oyununun idman versiyasının Məcəlləsinin ilk redaksiyası üzərində iş təxminən 1 il vaxt aldı və 2003-cü ildə bu sənəd işıq üzü gördu. Daha sonra isə bir neçə il ərzində biz Məcəlləyə müxtəlif düzəlişlər və qeydləri topladıq və 2008-ci ildə Məcəllənin hal-hazırda qüvvədə olan ikinci buraxılışını nəşr etdirdik.

Günümüzdə dünyanın bir çox ölkəsində “Nə? Harada? Nə zaman?” oyunu yenə də populyardır. Təəssüflə qeyd etmək lazımdır ki, “Nə? Harada? Nə zaman?” oyununun rəsmi dili olan rus dilini Rusiyanın hüdüdlarından kənarda bir çox gənclər sovet dövründə olduğu kimi yaxşı bilmirlər. Ona görə də Məcəllənin digər dillərə tərcümə edilməsi zərurəti yaranmışdır. Mən Məcəllənin tərcüməsi işini öz üzərlərinə götürmüş azərbaycanlı bilicilərə təşəkkürümü bildirirəm və onlara bu işdə uğurlar arzu edirəm. Əminəm ki, “Nə? Harada? Nə zaman?” oyununun Məcəlləsinin Azərbaycan dilində nəşri sevimli oyunumuzun Azərbaycanda inkişafı üçün güclü təkan və digər ölkələr üçün yaxşı nümunə olacaqdır.

Ən sonda isə «Nə? Harada? Nə zaman?» intellektual oyununun Məcəlləsinin tərcümə və nəşr edilməsi Layihəsinə dəstək verdiyinə və bununla da intellektual oyunlara və onların inkişafına töhfə verdiyinə görə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına da öz minnətdarlığımı bildirmək istərdim. Onların həssas yanaşması və dəstəyi olmadan bu Layihənin reallaşdırlması müşkül olardı.

Hörmətlə,

**Maksim Potaşev**
Dünya çempionu,
«Nə? Harada? Nə zaman?» Magistri



# Mündəricat


PREAMBULA ........ 6
**NHN OYUNUNUN XARAKTERİSTİKASI** ........ 6
1-Cİ HİSSƏ. OYUN ........ 6

**Fəsil 1.1. Oyunun iştirakçıları** ........ 6
1.1.1. Yarışın təşkilat komitəsi ........ 6
1.1.2. Redaksiya kollegiyası ........ 7
1.1.3. Oyun jürisi və Texniki komissiya ........ 7
1.1.4. Apellyasiya jürisi ........ 8
1.1.5. Oyunçular və komandalar ........ 9
1.1.6. Aparıcı ........ 10
1.1.7. Sekundantlar ........ 11
1.1.8. Tamaşaçılar ........ 12
1.1.9. Əvəzləşdirmələr ........ 12

**Fəsil 1.2. Oyun üçün materiallar və avadanlıqlar** ........ 13
1.2.1. Suallar ........ 13
1.2.2. Oyun materialları və avadanlıqları ........ 17

**Fəsil 1.3. Oyunun formatı** ........ 19
1.3.1. Turlara bölünmə ........ 19
1.3.2. Oyun turu ........ 19
1.3.3. Sual raundu ........ 20
1.3.4. Sual raundları arasında fasilə ........ 25
1.3.5. Turlararası fasilə ........ 26
1.3.6. Çatımlılığın məhdudlaşdırılması ........ 26
1.3.7. Komandaların cavablarının işlənməsi ........ 27
1.3.8. Turun nəticələrinin hesablanması ........ 27

2-Cİ HİSSƏ. YARIŞLARDA HAKİMLİK ........ 28

**Fəsil 2.1. Cavabların sayılma prinsipləri** ........ 28
2.1.1. Düzgün cavab ........ 29
2.1.2. Səhv cavab ........ 29
2.1.3. Sayılma meyarlarına uyğunluğun qiymətləndirilməsi ........ 30
2.1.4. Mübahisəli cavabların sayılması üzrə tövsiyələr ........ 30
2.1.5. Xüsusi hallar ........ 32

**Fəsil 2.2. Apellyasiyalar** ........ 32
2.2.1. Apellyasiyaların növləri ........ 32
2.2.2. Apellyasiyaların verilməsi ........ 33

2.2.3 Girov ... 34
2.2.4. Apellyasiyaların verilmə müddətləri ... 34
2.2.5. Apellyasiyalara baxılma qaydaları ... 34
2.2.6. Cavabın sayılmasına dair apellyasiyaya baxılması ... 35
2.2.7. Sualın qeyri-korrektliyinə dair apellyasiyaya baxılması ... 36
2.2.8. AJ-də qərarın qəbul edilməsi ... 37
2.2.9. AJ-nin işinin nəticələri ... 38

**Fəsil 2.3. İntizam tənbeh tədbirləri** ... 38
2.3.1. İntizam tənbeh tədbirlərinin növləri ... 38
2.3.2. Məzəmmət və xəbərdarlıq ... 39
2.3.3. Cavabın texniki sayılmaması ... 39
2.3.4. Turun sonunadək kənarlaşdırma ... 40
2.3.5. Yarışda iştirakdan uzaqlaşdırma ... 41
2.3.6. Diskvalifikasiya ... 42
2.3.7. İntizam tənbeh tədbirlərinin yüngülləşdirilməsi və ləğv edilməsi ... 42

3-CÜ HİSSƏ. NHN ÜZRƏ YARIŞLARIN TƏŞKİLİ ... 43

**Fəsil 3.1. Ümumi müddəalar** ... 43
**Fəsil 3.2. Yarış reqlamenti və onun hazırlanmasına dair tövsiyələr** ... 43
**Fəsil 3.3. Yarışlarda yerlərin bölüşdürülməsi** ... 44
3.3.1. Yerlərin bölüşdürülməsi sistemləri ... 44
3.3.2. Əsas və əlavə göstəricilər ... 45
3.3.3. Konkret turnir sxemləri üçün TNHS seçilməsi üzrə tövsiyələr ... 47

**Fəsil 3.4. Oyunçuların turnirlərdə iştirakı** ... 50
3.4.1. Komandanın sifariş heyəti ... 50
3.4.2. Varislik ... 50

**Fəsil 3.5. Sinxron yarışlar** ... 51
**Fəsil 3.6. Yüksək səviyyəli yarışların keçirilməsinə dair tövsiyələr** ... 52
**Fəsil 3.7. Yarışların keçirilməsinin sadələşdirilmiş proseduru** ... 52

ƏLAVƏLƏR ... 54

Əlavə A. Tövsiyə olunan minimal informasiya mənbələri ... 54
Əlavə B. Cavabların düzgünlüyünün qiymətləndirilməsi nümunələri ... 55
Əlavə V. AJ iş qaydası nümunəsi ... 66
Əlavə Q. AJ verdiktlərinin nümunəvi blankları ... 67
F.1. Sualın qeyri-korrektliyinə dair apellyasiya verdiktinin blankı ... 67
F.2. Cavabın sayılmasına dair apellyasiya verdiktinin blankı ... 69
Əlavə D. Oyun etikası ... 71
Əlavə E. Sözlük ... 73
TURNİRLƏR HAQQINDA ƏSASNAMƏ ... 78

# Preambula

Bu Məcəllə “Nə? Harada? Nə zaman?” (bundan sonra NHN) oyununun idman variantının əsas qaydalarını ehtiva edir.

Bu Məcəllə oyunun gedişatı zamanı meydana çıxa biləcək bütün halları nəzərdə tutmur və oyunun təşkilinin bütün təfərrüatlarını tənzimləmir. Məcəllənin müvafiq paraqrafı ilə tam tənzimlənməyən hallar meydana çıxdıqda qərarlar Məcəllədə nəzərdə tutulan analoji hallar əsasında qəbul edilməlidir.

Məcəllə ondan çıxış edir ki, Məcəllədə təsvir edilmiş müxtəlif funksiyaları icra edən şəxslər lazımi səriştəyə, kifayət qədər sağlam düşüncəyə malikdirlər və tam obyektivdirlər.

NHN üzrə yarış keçirilərkən bu Məcəllə yarışın reqlamenti ilə birlikdə istifadə edilməlidir. Yarışın reqlamenti bu Məcəlləyə zidd olmamalıdır. Yarışın reqlamenti bu Məcəllənin mətnində, yarışın reqlamentində nəzərdə tutulmalı informasiya kimi göstərilmiş bütün məlumatları özündə ehtiva etməlidir.

Bu Məcəllə “Nə? Harada? Nə zaman?” Klublarının Beynəlxalq Assosiasiyasının İdarə Heyəti tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir və dərc olunduqdan ən azı 1 ay sonra keçirilən yarışlara şamil edilir. A-E əlavələri Məcəllənin ayrılmaz tərkib hissəsidir və əsas hissə ilə eyni zamanda qüvvəyə minir.

# NHN oyununun xarakteristikası

NHN – komandaların onlara verilmiş suala məhdud vaxt ərzində düzgün cavab tapmaq bacarığında yarışdıqları komanda oyunudur. Oyun prosesində hər komandanın məqsədi - rəqiblərinə nisbətən daha çox suala düzgün cavab verməkdir.

# 1-ci Hissə. Oyun

## Fəsil 1.1. Oyunun iştirakçıları

### 1.1.1. Yarışın təşkilat komitəsi

Yarışın təşkilat komitəsi (bundan sonra YTK) yarışı hazırlayır və onun keçirilməsinə görə məsuliyyət daşıyır.

YTK aşağıdakı funksiyaları yerinə yetirir:

- yarışın reqlamentinin hazırlanması;
- yarışın keçirilməsi və nəticələrin hesablanmasının bu Məcəlləyə uyğun olaraq təmin edilməsi;
- oyun qaydalarına riayət olunmasına nəzarət edilməsi;
- digər orqanların səlahiyyəti xaricində olan mübahisəli vəziyyətlərdə qərarların qəbul edilməsi.

Əyani yarışlarda ən azı bir YTK üzvü iştirak etməlidir.

### 1.1.2. Redaksiya kollegiyası

Redaksiya kollegiyası (bundan sonra RK) keçirilən yarışın (yaxud onun bir hissəsinin) suallar paketini hazırlayır. RK YTK tərəfindən təyin olunur və yarışın reqlamentində nəzərdə tutulmalıdır.

RK ayrı-ayrı sualların, yaxud bütün paketin yoxlanılması və qiymətləndirilməsi üçün testerləri - oyun təcrübəsinə malik olan və keçiriləcək yarışda iştirak etməyəcəyi əvvəlcədən bəlli olan şəxsləri cəlb etmək hüququna malikdir.

### 1.1.3. Oyun jürisi və Texniki komissiya

Oyun jürisi (bundan sonra OJ) yarış başlamazdan öncə YTK tərəfindən təyin olunur.

Oyunun jürisinin (OJ) funksiyalarına aşağıdakılar daxildir:

- komandaların verdikləri cavabların sayılması ilə bağlı qərarların qəbul edilməsi;
- turun (yarışın) ilkin nəticələrinin hesablanması və texniki səhvlər aşkar edildiyi təqdirdə onlara düzəlişlər edilməsi;
- oyunun gedişində bu Məcəllənin və reqlamentin normalarına riayət olunmasına operativ nəzarət;
- nəticələr cədvəlinin tərtib edilməsi və komandaların cavab kartlarının saxlanılması.

OJ tərkibi azı iki nəfərdən ibarət olmalıdır. Əyani yarışlarda OJ heyətinin say tərkibini iştirakçı komandaların sayına mütənasib şəkildə müəyyən etmək tövsiyə olunur (hər 15-20 iştirakçı komandaya bir OJ üzvü).

Cavabların sayılması zamanı OJ bu **Məcəllənin 2.1-ci Fəslində** təsbit edilmiş qaydaları rəhbər tutmalıdır. Bu qaydaların təsiri altına düşməyən hallarda OJ cavabın düzgünlüyünü öz mülahizəsinə uyğun şəkildə qiymətləndirmək hüququna malikdir.

OJ oyun qaydalarına riayət olunmasına nəzarəti həyata keçirərkən, bu Məcəllənin müvafiq müddəalarını və reqlamentin müvafiq maddələrini rəhbər tutmalıdır.

Çox sayda komandaların iştirakı ilə keçirilən yarışlarda OJ-yə yardım etmək üçün nəticələr cədvəlinin tərtib edilməsi və komandaların cavab kartlarının saxlanılmasını həyata keçirən Texniki komissiya (bundan sonra TK) yaradila bilər. TK-nın təyin olunması və ona yeni üzvlərin daxil edilməsi YTK və onun nümayəndəsi tərəfindən həm yarış başlamamışdan öncə, həm də yarışın gedişində həyata keçirilə bilər.

Eyni yarışın müxtəlif turları OJ və TK-nın fərqli heyətlərinin iştirakı ilə keçirilə bilər. Yarışın ayrı-ayrı turlarının iştirakçı komandalar tərəfindən hazırlandığı hallarda OJ və TK-nın heyəti müvafiq turu hazırlayan komanda tərəfindən müəyyən olunur.

OJ yaxud TK-nın hər hansı üzvü üzərinə düşən funksiyaları yerinə yetirə bilmədiyi halda, YTK həmin üzvü yarışdan uzaqlaşdırmaq hüququna malikdir.

Oyun zamanı oyunçuların OJ və TK üzvləri ilə ünsiyyəti qadağandır. Turlararası fasilə zamanı iş prosesi zamanı OJ və TK ilə yalnız komandaların kapitanlarının ünsiyyətə girməsinə icazə verilir.

OJ-nin fəaliyyəti **1.3.7.** və **1.3.8. paraqraflarda** ətraflı təsvir olunub.

---

## 1.1.4. Apellyasiya Jürisi

Apellyasiya jürisi (bundan sonra AJ) vəzifəsi komandaların apellyasiyalarına dair qərar qəbul etmək olan orqandır. AJ-nin qərarı qətidir.

Əgər yarışın reqlamenti apellyasiya verilməsini nəzərdə tutursa, AJ YTK tərəfindən formalaşdırılır. AJ yarış başlamazdan öncə formalaşdırılmalıdır.

AJ-nin funksiyaları OJ-yə də həvalə oluna bilər ki, bu halda, AJ-nin aşağıda qeyd olunan bütün hüquq və vəzifələr OJ-yə keçir. AJ ya yarışda iştirak edir, ya da ki, fəaliyyətini müxtəlif rabitə vasitələrinin (telefon, internet və s.) köməyi ilə həyata keçirir. Reqlamentdə AJ-nin formalaşdırılması və fəaliyyəti qaydası, həmçinin YTK üzvlərinin, OJ yaxud TK-ya daxil edilmiş şəxslərin, aparıcı, sual müəlliflərinin AJ-də iştirakının mümkünlüyü barədə qərar aydın şəkildə əks olunmalıdır.

AJ heyəti ən azı 3 nəfərdən ibarət olmalıdır.

YTK tərəfindən təyin edilən AJ katibi iştirakçı komandaların apellyasiyalarını qəbul edir, qeydə alır və AJ-yə ötürür. AJ katibi AJ üzvü deyil və apellyasiyalara baxılmasında iştirak etmir.

AJ məsləhətləşmək üçün istənilən şəxsi cəlb etmək hüququna malikdir.

Oyun zamanı oyunçuların AJ ilə ünsiyyəti qadağandır. Turlararası fasilələr zamanı verilmiş apellyasiyalar üzrə verdikt çıxarılana qədər oyunçuların AJ ilə ünsiyyəti yalnız AJ-nin təşəbbüsü əsasında mümkündür.

AJ üzvünün yarışdan uzaqlaşdırılması, yaxud əvəz edilməsi YTK tərəfindən yalnız istisna hallarda həyata keçirilə bilər.

AJ-nin fəaliyyəti **2.2. Fəsildə** ətraflı təsvir olunub.

## 1.1.5. Oyunçular və komandalar

Oyun masası arxasında olub-olmamasından asılı olamayaraq, yarışda iştirak etmək üçün komandalarda birləşmiş şəxslər oyunçular hesab olunur.

Komandada yalnız onun sifariş heyətinə daxil olan oyunçular oynaya bilər **(bax. Fəsil 3.4.)**. Hər bir anda oyun masasının arxasında 6 oyunçudan artıq oyunçu ola bilməz. Komandanın cari anda oyunda iştirak etməyən oyunçuları ehtiyat oyunçular adlanır. Oyunçunun əvəz edilməsi (oyuna ehtiyat oyunçunun daxil edilməsi) yalnız turlararası fasilələrdə həyata keçirilə bilər. Turun başlanğıcına gecikmiş oyunçu yalnız sual raundu arasındakı fasilə zamanı aparıcının icazəsi ilə öz yerini tutmaq hüququna malikdir.

Hər bir komandada kapitan xüsusi funksiyaları icra edir. Komandanın sifariş heyətində **(bax. paraqraf 3.4.1.)** kapitanın kim olduğu aydın şəkildə qeyd olunmalıdır.

YTK və ya onun nümayəndəsi ilə razılaşdıqmaqla kapitanın funksiyaları müvəqqəti olaraq həmin komandanın başqa oyunçusuna həvalə edilə bilər. Bu oyunçu komandanın kapitanı hesab olunmur, lakin, YTK və OJ ilə ünsiyyətdə kapitanın hüquqlarından istifadə edir.

## 1.1.6. Aparıcı

Aparıcılıq funksiyaları YTK tərəfindən müvafiq yarışlarda (yaxud onun müvafiq hissəsində) oyunçu qismində iştirak etməyən istənilən şəxsə həvalə oluna bilər. Aparıcının öz funksiyalarını qeyri-qənaətbəxş icra etməsi nəticəsində və ya intizam tənbeh tədbiri qaydasında, o YTK tərəfindən yarışdan kənarlaşdırıla və əvəz oluna bilər.

Bir yarışın müxtəlif turları müxtəlif aparıcıların iştirakı ilə keçirə bilər. Turları ayrı-ayrı iştirakçı komandalar tərəfindən hazırlanan yarışlarda aparıcı bir qayda olaraq turu hazırlayan komanda tərəfindən təyin edilir.

Aparıcı aşağıdakı əsas funksiyaları yerinə yetirir:

- sualların mətninin, müəllif cavablarının və sualların digər komponentlərinin oxunması;
- sekundantların fəaliyyətinə operativ rəhbərlik;
- oyunun gedişi zamanı bu Məcəllənin və reqlamentin normalarına riayət olunmasına operativ nəzarət;
- avtomatik hesablama sistemi olmadığı təqdirdə vaxt hesabının aparılması.

Aparıcı:

- yaxşı tələffüz qabiliyyətinə malik olmalı və oyunun keçirildiyi danışıq dilini sərbəst bilməli;
- oyun materialları ilə əvvəlcədən tanış olmalı;
- sualları dəqiq və aydın oxumalıdır.

Aparıcının hüququ var ki,:

- ehtiyac olarsa, sualın tam mətnini və ya ayrı-ayrı hissəsini təkrar etsin;
- gecikmiş yaxud geri qayıtmış oyunçulara raundlararası fasilələrdə oyun masası arxasına keçməyə 1.1.5-ci paraqrafa uyğun olaraq icazə versin;
- istisna hallarda ayrıca oyunçuya oyun məkanını tərk etməyə icazə versin;

- hazırkı Məcəllə və ya reqlament normalarının ayr-ayrı oyunçular yaxud komandalar tərəfindən pozulması hallarını qeydə alsın, OJ və ya YTK-nı bu barədə məlumatlandırsın, bu Məcəllə və ya reqlamentdə nəzərdə tutulduğu halda isə pozuntuya yol vermiş şəxslərə qarşı intizam tənbeh tədbirlərini tətbiq etsin **(bax. Fəsil 2.3.)**.

Aparıcının fəaliyyəti **1.2** və **1.3-cü Fəsillərdə** ətraflı təsvir olunub.

---

## 1.1.7. Sekundantlar

Sekundant funksiyası aparıcı və ya YTK tərəfindən oyunda / cari turda iştirak etməyən istənilən şəxsə həvalə oluna bilər. Oyun ərzində sekundant aparıcının köməkçisi sayılır və onun göstərişlərini yerinə yetirir.

Sekundantın funksiyalarına daxildir:

- sualların əyani materiallarını paylamaq;
- cavab kartlarını yığmaq **(sekundantın bu funksiyası 1.3.3.6-cı paraqrafda ətraflı təsvir edilib)**
- oyunun gedişi zamanı hazırkı Məcəllənin və reqlamentin normalarına riayət olunmasına operativ nəzarət. Sekundantlar xüsusilə komandanın say tərkibinin 6 nəfərdən artıq olmamasına və komandanın sual müzakirəsi qaydalarına riayət etməsinə nəzarət edirlər **(bax. paraqraf 1.3.3.5)**.

Sekundantın hüququ yoxdur:

- paylanılan material və ya yığılmış cavab kartlarına hər hansı bir düzəlişlər və təhriflər etmək;
- digər komandaların verdiyi cavablar barədə hər hansı başqa komandanı məlumatlandırmaq;
- yığılmış cavab kartlarını aparıcı, OJ və TK-dan başqa hər hansı şəxsə vermək və ya göstərmək.

Əgər sekundantın mülahizəsinə görə komanda və ya oyunçu oyun qaydalarını pozubsa, sekundant YTK tərəfindən müəyyən edilmiş işarə vasitəsi ilə (məsələn, fit və ya əli yuxarı qaldırmaqla) OJ-nin diqqətini cəlb edir. Əgər qayda pozuntusu müzakirə dəqiqəsi ərzində baş verərsə və siqnal komandalara sualı müzakirə etməyə mane olacaqsa, sekundant OJ-nin diqqətini müzakirə dəqiqəsi başa çatdıqdan sonra cəlb edir. OJ baş verənlərin mahiyyətini müəyyənləşdirməli, bütün lazımi məlumatları qeyd etməli (məsələn, komandaların və sualın nömrəsini) və bundan sonra tur davam etməlidir. OJ qaydanı pozanların cəzalandırılması barədə qərarı turdan sonrakı fasilə zamanı qəbul edir.

Sekundantlar həmçinin OJ-yə komandanın cavabı gecikmə ilə verdiyi barədə də məlumat verə bilər. Bu fəaliyyət **1.3.3.6-cı paraqrafda** daha ətraflı təsvir olunub.

Hər sekundanta ən çoxu 10 komanda düşməlidir. Turnir başlamamışdan əvvəl hər bir komandanın müəyyən sekundanta təhkim edilməsi tövsiyə olunur. Yarışın gedişatı zamanı aparıcı yaxud YTK əlavə sekundantların cəlb edilməsi və ya konkret sekundantın müəyyən qrup komandalara təhkim edilməsi barədə operativ qərar qəbul edə bilər.

Əgər sekundant öz funksiyalarının öhdəsindən gəlmirsə, aparıcı və ya OJ onu yarışlardan kənarlaşdırmaq hüququna malikdir.

---

## 1.1.8. Tamaşaçılar

Əgər reqlament və ya YTK-nın qərarı ilə əksi nəzərdə tutulmamışdırsa oyunda tamaşaçıların iştirakına icazə verilir.

Oyunda iştirak edən tamaşaçılar hazırkı Məcəllə və reqlamentin normalarına riayət etməli, oyunun gedişinə və nəticələrin hesablanmasına mane olmamalıdırlar. Müəyyən edilmiş qaydaları pozan tamaşaçılara intizam tənbeh tədbirləri tətbiq edilir.

Oyun zalında komandaların yerləri tamaşaçıların yerlərindən təcrid edilməlidir. Ehtiyat oyunçular və yarışın (yaxud onun hissəsinin) təşkilində bilavasitə iştirak etməyən YTK və RK üzvləri oyunun gedişatı zamanı tamaşaçılar üçün ayrılmış yerlərdə olmaq və mövcud qaydanı pozmadan onlarla ünsiyyətdə olmaq qadağan edilmir.

Tamaşaçılara oyun zamanı OJ, TK, AJ üzvləri və oyun masası arxasında oturan iştirakçılarla ünsiyyətdə olmaq qəti qadağandır. Turlar arasındakı fasilələrdə tamaşaçıların oyunçularla ünsiyyəti mümkündür, OJ, TK və AJ üzvləri ilə ünsiyyəti isə yalnız onların öz cari vəzifələrinin icrasını yekunlaşdırmasından və qərarlar qəbul etmələrindən sonra mümkündür.

---

## 1.1.9. Əvəzləşdirmələr

YTK üzvü yarışda oyunçu, aparıcı, sekundant, RK, OJ, TK, həmçinin AJ-nin üzvü, katibi, ya da məsləhətçisi qismində iştirak edə bilər. Belə hallarda ona müvafiq hüquqlar, öhdəliklər və məhdudiyyətlər şamil olunur.

Yarışın (yaxud onun cari hissəsinin) aparıcısı, ehtiyac olarsa, sekundantlardan birinin vəzifələrini icra edə, həmçinin RK, OJ, TK yaxud AJ tərkibinə daxil ola bilər və ya AJ-nin katibi ya da məsləhətçisi ola bilər.

Turları ayrı-ayrı iştirakçı komandalar tərəfindən hazırlanan yarışlar istisna olmaqla, yarışda iştirak edən oyunçu (ehtiyat oyunçular da daxil olmaqla) aparıcı, sekundant, həmçinin RK, OJ, TK üzvü, AJ-nin üzvü və ya katibi ola bilməz. RK üzvü AJ üzvü ola bilməz. RK, OJ, TK və AJ üzvləri ehtiyac olarsa sekundant funksiyalarını yerinə yetirə bilərlər.

OJ və ya TK-də işləri AJ-də işlə birləşdirmək tövsiyə olunmur. OJ yaxud TK üzvünün AJ katibi və ya məsləhətçi qismində cəlb edilməsi mümkündür.

OJ-nın heyətinə RK üzvlərindən ən azı birini daxil etmək tövsiyə olunur.

Zərurət yarandığı halda tamaşaçının üzərinə, onun razılığı ilə, sekundantın, yaxud TK üzvünun və ya AJ-nin məsləhətçisinin funksiyaları qoyula bilər. Belə hallarda ona müvafiq hüquqlar, öhdəliklər və məhdudiyyətlər şamil olunur.

---

# Fəsil 1.2. Oyun üçün materiallar və avadanlıqlar

Tur keçirilərkən aşağıdakı materiallar və avadanlıq istifadə olunur:

- suallar;
- oyun məkanı;
- oturacaqlar;
- cavab kartları;
- sorğu-informasiya materialları.

Yüksək səviyyəli yarışların keçirilməsində istifadə edilməsi tövsiyə olunan bəzi digər material və avadanlıqlar **3.7-ci Fəsildə** sadalanmışdır.

---

## 1.2.1. Suallar

### 1.2.1.1. Anlayışlar

NHN sualı – qeyri-mətn elementlərinin (təsvirlər, səs və video yazıları və s.) cəlb edilməsi mümkünlüyü ilə təbii dildə ifadə edilmiş tapşırıqdır. NHN suallarını digər tapşırıq növlərindən  fərqləndirən cəhətlər aşağıdakılardır:

- Tapşırığın qısalığı. Bir qayda olaraq, NHN sualı bir dəqiqə ərzində verilə bilər. Qeyri-mətn elementlərini istifadə edən suallar üçün verilmə vaxtı bir neçə dəqiqəyə çata bilər.
- Cavabın qısalığı. Bir qayda olaraq, NHN sualının cavabının yazılması üçün bir neçə söz və ya simvol kifayət etməlidir.
- Düşünmə elementi. NHN sualının cavabı sual üzərində düşünmək yolu ilə zəruri biliklərin və ümumbəşəri təsəvvürlərin (məsələn, gözəllik və ya gülməli şey haqqında) cəlb edilməsi mümkünlüyü ilə tapılır.
- Sadəlik. NHN sualının qavranılması və ya ona cavab verilməsi üçün, bir qayda olaraq, dar ixtisas bilikləri tələb olunmamalıdır.
- Məcazilik. Sualın mətnində sözlər həqiqi deyil, məcazi mənada işlənə, ədəbi dil üçün xarakterik olan, sözlərin mənasının metonimik köçürmələri, sinekdoxalar, alleqoriyalar, canlandırmalar və digər məcazlardan istifadə edilə bilər.

Əgər yarışın reqlamentində bunun əksi təsbit edilməyibsə suallar rus dilində oxunur. Yarışın hansı dildə keçirilməsindən asılı olmayaraq, sualların bəzi hissələri yaxud əyani material başqa dildə olması aydın şəkildə bildirilən və ya bildirilməyən digər dildə ola bilər. Bütövlükdə əcnəbi dildə suallardan istifadə edilməsi istisna hallarda mümkündür.

Cavab – sualın şərtlərinə görə tələb olunan məlumatın ifadə (bir qayda olaraq yazılı formada) olunmasıdır. Cavab mahiyyətinə və formasına görə suala uyğun olmalıdır.

Suallar paketi (bundan sonra paket) – yarış (yaxud onun hissəsi) üçün hazırlanmış və müəyyən ardıcıllıqla düzülmüş suallar dəstidir.

---

### 1.2.1.2. Sual materialının hazırlanması

Paketi elektron formada hazırlamaq və sualların verilməsi zamanı çap edilmiş nüsxədən istifadə etmək tövsiyə edilir.

Paketdə suallardan öncə yarış, tur və RK barədə, həmçinin digər informasiya (məsələn, minnətdarlıqlar) yer ala bilən preambula olmalıdır.

Hər sual aşağıdakı hissələrdən ibarətdir:

- sualın nömrəsi;
- *aparıcıya göstərişlər;
- sualın mətni;

- *əyani materiallar;
- müəllif cavabı;
- *sayılma meyarları;
- *şərh;
- *informasiya mənbələri;
- sual müəllifi və ya müəllifləri.

Ulduzla qeyd edilmiş hissələr (həmçinin informasiya mənbəyi) mövcud olmaya da bilər. Lakin, əgər yarışın reqlamenti apellyasiyalara icazə verirsə, bu halda informasiya mənbəyi sualın mütləq hissəsi sayılır. Qalan hissələr mütləqdir. Hər bir hissədən əvvəl, onun hansı hissə olduğunu qavramağa imkan verən yarımbaşlıq olmalıdır məsələn, «Cavab:» və ya «Mənbə:».

Yarışda verilən hər bir sual öz sıra nömrəsinə malikdir. Əgər yarış bir neçə turdan (hissələrdən) ibarət olmaqla keçirilirsə, onda suallar ümumi və ya turlar üzrə nömrələnə bilər. Sualların nömrələnməsinin konkret növü reqlamentlə mütləq şəkildə təsbit edilə bilər. Növbəti sualın oxunmasından əvvəl aparıcı onun nömrəsini elan etməlidir. Əgər sualın nömrəsi elan olunduqdan sonra aparıcı bu suala aid olmayan hər hansı bir sözləri işlədərsə, (məsələn, oyunçulardan birinə irad bildirərsə və ya sekundantlara göstərişlər verərsə), o bu sözlərin sualın mətninə aid olmadığına dair izah verməli və sualın nömrəsini təkrar elan etməlidir.

Aparıcıya göstərişlər aparıcının diqqətini mətnin müəyyən hissələrinin xüsusi tələffüzünün (vurğunun) vacib olmasına, durğu işarələrinin səsləndirilməsinə, mətnin müəyyən yerlərdə fasilələrə və s. cəlb etməyə yönəlmişdir. Onlar sualın mətni ilə birlikdə oxunmurlar. Bir qayda olaraq, onlar sual mətninin əvvəlində yerləşdirilir, kursiv və ya başqa üsulla fərqləndirilir və kvadrat mötərizələrə alınırlar. Sual mətnində başqa dildə olan sözlərin tələffüzünə dair aparıcıya göstərişlərə rast gəlinə bilər – bu göstərişlər vurğu düşən heca qeyd edilməklə müvafiq sözlərin rus dilli fonetik transkripsiyasından ibarət olur.

Aparıcı tərəfindən oxunan sualın şifahi hissəsi sualın mətnidir. Sualın mətninin bitməsinə və müzakirə dəqiqəsinin **(bax. paraqraf 1.3.3.)** başlanmasına aparıcının «Vaxt!» siqnalı ilə işarə edilir. Əgər sualda əyani materiallar varsa, onların mövcudluğu barədə aydın şəkildə elan edilməlidir. Əgər sualın mətnini səsləndirən zaman aparıcı təsadüfən və ya bilərəkdən orada hər hansı dəyişikliklər edərsə və onları düzəltməzsə, onda sual məhz səsləndirilmiş şəkildə verilmiş hesab edilir və sonradan, nəşr vaxtı sualın ilkin mətnində müvafiq düzəlişlər edilir.

Əyani materiallara aşağıdakılar aid edilə bilər:

- əşyalar;
- düsturlar, sxemlər, cədvəllər, mətnlər, təsvirlər;
- jestlər və pantomim kompozisiyaları;
- səsyazmalar və kütləvi şəkildə canlandırılan səsli fraqmentlər;
- videomateriallar.

Əgər sualın tərkibində çap və ya komandalara paylanan digər materiallar varsa, bu halda hər komandaya ən azı üç nüsxə çatmalıdır.

Əyani materialın xüsusi növü olan “qara qutu” içərisində müəyyən əşya saxlanılan qabdır (sualın və cavabın mətninə görə qara qutuda olmalı olan əşya həqiqətən onun içərisində olmalıdır; onun yoxluğu faktiki səhv hesab edilə və **2.2.7. paraqrafa** uyğun olaraq sualın çıxarılması üçün əsas ola bilər). “Qara qutu” sualın mətni elan edilməzdən öncə və ya sualın mətni elan edilən zaman oyunçulara nümayiş etdirilməlidir. “Qara qutu” qismində istənilən qeyri-şəffaf qab (məsələn, aparıcının cibi) nümayiş etdirilə bilər.

Müəllif cavabı RK-ın mülahizəsinə görə verilmiş suala düzgün cavabdır.

Sayılma meyarları – müəllif cavabı ilə üst-üstə düşməyən cavabların düzgün yaxud səhv olmasının qiymətləndirilməsi üçün əsas olan RK tərəfindən müəyyən edilmiş göstərişlərdir. Sayılma meyarları aydın və ya qeyri-aydın şəkildə ifadə edilə bilər. Sayılma meyarının aydın şəkildə ifadə edilməsi düzgün (müəllif cavabı ilə yanaşı) və ya səhv hesab edilən cavabların birbaşa sadalanması və ya yalnız dəqiq cavabın sayılmalı olması barədə qeyd verilməsindən ibarətdir. Sayılma meyarının qeyri-aydın şəkildə ifadə edilməsi müəllif cavabına oxşar cavabların və açar sözləri ehtiva edən cavabların sayılması barədə göstərişdir.

Şərh sual müəlliflərinin və RK-nın sualın və cavabın mahiyyətinin qavranılması, düzgün cavabların axtarış yolları və ya seçilməsi və s. üçün vacib hesab etdiyi izahatlardır.

İnformasiya mənbələri sualda göstərilən fakt və müddəaların mötəbərliyini təsdiq edən çap və elektron sənəd və nəşrlərə, kino və videofilmlərə, radioproqramlara, şəxsi sənədlərə, sual müəllifinin söhbət, xatirə və təəssüratlarına istinadları ehtiva edir. İnformasiya mənbələrini göstərərkən, onların əsas göstəricilərini və rekvizitlərini (səhifənin internetdəki ünvanı, kitabın nəşr tarixi, qəzetin və ya jurnalın nömrəsi, lazımi iqtibasın səhifəsini, teleproqramın efirə verilmə vaxtı-

nı və s.) göstərmək tövsiyə olunur. Əgər nəşr ümumqəbuledilən yaxud nümunəvidirsə əsas göstəricilər verilməyə də bilər.

Müəlliflər haqqında məlumatlar cari sualı hazırlamış bütün müəlliflərin (bir qayda olaraq RK üzvləri daxil olmamaqla) ad və soyadlarından ibarətdir. Bundan əlavə sual müəllifinin yaşadığı ölkə və şəhər, həmçinin onun daimi əsaslarla oynadığı komandanın adı da qeyd oluna bilər. Cari suala bu və ya digər müəllifin verdiyi töhfə “filankəsin iştirakı ilə”, “filankəsin redaktəsi ilə”, “filankəsin ideyası ilə” və s. kimi ifadələrlə dəqiqləşdirilə bilər.

Blits sualda sualın mətni özündə preambulanı, mini sualların mətnini, cavabı - bütün mini suallara cavabları, şərhi - bütün mini suallara şərhləri və s. ehtiva edir.

---

### 1.2.1.3. Suallara çatımlılıq

YTK sualları aparıcıya tur başlamamışdan öncə təqdim edir. Aparıcı tur başlamamışdan öncə suallarla tanış olmalıdır və ona bunun üçün kifayət qədər vaxt verilməlidir. Aparıcı sualları vərəqdən və ya kompyuterin ekranından oxuya bilər.

Suallar oynanılana qədər oyunçular və sekundantlara turun sualları ilə tanış olmaq qadağandır. Komandaların kapitanları turdan sonrakı fasilə zamanı turun suallarının tam mətnilə tanış olmaq hüququna malikdirlər.

YTK yarışda istifadə edilmiş sualların nəşrinə və ya açıqlanmasına, həmçinin onların ictimai müzakirəsinə müvəqqəti qadağa qoymaq hüququna malikdir. Bu qadağa yarışın bütün iştirakçılarına aiddir. Belə qadağanın tətbiqi və onun qüvvədə olma müddəti haqqında reqlamentdə və ya bilavasitə oyunda birinci sual raundundan əvvəl elan edilməlidir.

---

## 1.2.2. Oyun materialları və avadanlıqlar

Oyun zalı yarışda iştirak edən bütün komandaların yerləşdirilməsi üçün kifayət qədər ölçülərə malik olmalıdır. Yarışda iştirak edən bütün komandalara oyun üçün normal və mümkün qədər bərabər şərait, xüsusən yetərli işıqlandırma səviyyəsi, havanın komfort hərarəti və sualların müzakirəsi zamanı kənar səs-küyün olmaması təmin edilməlidir. Bütün komandalara sualları normal eşitmək imkanı təmin edilməlidir. Əgər oyun zalında aparıcıdan 10 metrdən uzaq məsafədə oturan komandalar varsa sualların səsləndirilməsi zamanı mikrofondan istifadə edilməsi tövsiyə olunur.

Hər bir komanda oyunçulara sualları birgə müzakirə etməyə imkan verən şəkildə yerləşdirilmiş masa və altı oturacaqla (kreslo və s.) təmin edilməlidir. Oyun masası oyunçuların onun arxasında yerləşə biləcəyi ölçülərdə olmalıdır. Qonşu oyun masaları arasındakı məsafə, bir qayda olaraq 1,5 metrdən az olmamalıdır. Aparıcı, OJ, TK, AJ masasından (iş yeri) ən yaxın oyun masasına qədər olan məsafə, bir qayda olaraq 2 metrdən az olmamalıdır. YTK öncədən və ya yarışın gedişində konkret oyun masalarını konkret komandalara təhkim etmək hüququna malikdir.

Aparıcının iş yeri, bir qayda olaraq oturacaqla təmin edilmiş masadır. TK və OJ-nin iş yerləri təhvil verilən cavabların və nəticə cədvəllərinin yerləşdirilməsi və çeşidlənməsi üçün kifayət qədər böyük ölçülərə malik olan və müvafiq sayda oturacaqlarla təmin edilmiş masanı nəzərdə tutur. Aparıcı, OJ və TK masalarının birləşdirilməsinə yol verilir.

AJ-nin iş yeri (əgər o əyani fəaliyyət göstərirsə) oturacaqlarla təmin edilmiş ayrıca masadır. AJ-nin oyun zalından kənarda, sorğu-informasiya ədəbiyyatı və internetə çıxışla təmin olunmuş ayrıca məkanda yerləşdirilməsi tövsiyə edilir.

Turlararası fasilələrdə AJ katibinə ayrıca iş yeri ayrılmalıdır.

Hər bir komanda turdakı sualların sayına uyğun miqdarda cavab kartları ilə təmin edilməlidir. Kartlarda komandanın və sualın nömrələri üçün yer aydın şəkildə işarələnməlidir. Əgər bu sahələr doldurulmayıbsa, komanda onları düzgün doldurmalıdır, bu zaman cavab kartı təhvil verilənə qədər blankda təsadüfən yol verilən səhvlərin düzəldilməsinə icazə verilir. Kartlarda həmçinin cavabın yazılması üçün eni ən azı beş, hündürlüyü ən azı üç santimetr olan sahə olmalıdır.

Yarışların gedişində OJ və TK üzvləri nəticələri cədvəllərdə qeyd edirlər. Cədvəllərin əllə və ya kompyuter texnikası ilə hazırlanması və doldurulması mümkündür. Hər bir tur və bütün yarışın nəticələri hesablandıqdan sonra, bütün komanda kapitanlarına nəticələr cədvəli ilə tanışlıq imkanı verilməlidir. Proyeksiya texnikasından istifadə edilərkən, yekun cədvəlin ekranda nümayiş etdirilməsi mümkündür.

Turun gedişində OJ-nin sərəncamında ən azı, **A əlavəsində** sadalanan sorğu-informasiya materiallarının olması tövsiyə edilir. Bütün bu materiallar turdan sonrakı fasilə zamanı komandaların kapitanları üçün əlçatan olmalıdır.

Yarışların keçirilməsi zamanı sualların qavranılmasını, vaxtın və nəticələrin hesablanmasını asanlaşdıran əlavə avadanlıqlardan, xüsusən səsyazma, kompyuter və proyeksiya texnikalarından və s. istifadə edilməsi mümkündür.

# Fəsil 1.3. Oyunun formatı

## 1.3.1. Turlara bölünmə

Yarışın sabit miqdarda sual raundundan ibarət nisbətən müstəqil hissəsi tur hesab edilir **(bax. paraqraf 1.3.3.)**. Yarışın reqlamentində turlara bölünmənin hansı qaydada həyata keçirilməsi təsbit edilməlidir.

Tur iki hissədən ibarətdir – oyun turu və oyun turundan sonrakı fasilə

Oyun turu aşağıdakı hissələrdən ibarətdir:

- oyun turunun başlanğıcı;
- sual raundu (turdakı sualların sayı qədər təkrarlanır);
- oyun turunun sonu.

Oyun turundan sonra fasilə zamanı turun ilkin nəticələrinin hesablanması və elan edilməsi, texniki səhvlərin aradan qaldırılması və bəzi digər hadisələr baş verir.

## 1.3.2. Oyun turu

### 1.3.2.1 Turun başlanğıcı

Oyun turu başlamazdan öncə aparıcı aşağıdakı hərəkətləri icra edir:

- mikrofon və səs sistemini yoxlayır;
- özünü, RK, OJ və həmçinin iştirak edən YTK üzvlərini təqdim edir (əgər birinci turdursa və yaxud dəyişikliklər baş vermişdirsə);
- yarışın adını, turun nömrəsini və ya adını, turdakı sualların sayını xatırladır;
- oyunçuları vaxtın hesablanması sistemi ilə tanış edir, o cümlədən vaxtın hesablanmasında istifadə edilən bütün siqnalları səsləndirir (əgər birinci turdursa və yaxud dəyişikliklər baş vermişdirsə);
- əgər komandalar kartlarda komandaların nömrələrini əl ilə yazırlarsa, komandaların nömrələrini elan edir (əgər birinci turdursa) və cari tur üçün komandalara kartlarda bu sahənin doldurulması üçün vaxt verir;

- əgər komandalar kartlarda sualların nömrələrini əl ilə yazırlarsa, sualların nömrələnməsinin xüsusiyyətlərini izah edir (ümumi və ya turlar üzrə nömrələnmə və s.) və cari tur üçün komandalara kartlarda bu sahənin doldurulması üçün vaxt verir;
- əvvəllər elan edilmiş nəticələr ilə müqayisədə keçən turun ilkin nəticələrində dəyişikliklər və ya belə dəyişikliklərin olmaması barədə məlumat verir (əgər birinci tur deyilsə);
- daha əvvəl açıqlanmamış qərarların elan edilməsi üçün AJ nümayəndəsinə söz verir və ya bu məlumatı özü elan edir (əgər birinci tur deyilsə);
- baş verdiyi təqdirdə əvvəlki turda qayda pozuntularına dair OJ-nin qəbul etdiyi qərarları elan edir (əgər birinci tur deyilsə);
- sekundantları təqdim edir, ehtiyac olarsa, hansı sekundantların hansı komandalara təhkim edilməsi barədə izah verir (əgər birinci turdursa və yaxud dəyişikliklər baş vermişdirsə);
- komandaların oyuna hazırlığını yoxlayır. İstənilən komandanın kapitanı komandasının oyuna hazır olmadığını bəyan edə bilər. Bu bəyanatın əsasını oyun masasının və ya oturacaqların olmaması, yaxud qeyri-məqbul vəziyyətdə olması, qeyri-kafi işıqlanma, pis eşidilmə, komandaya cavab blanklarının zəruri miqdarda verilməməsi təşkil edə bilər. Bu halda iştirak edən YTK üzvləri imkan daxilində turun ilk sualı səsləndirilənə qədər komanda üçün normal oyun şəraiti təmin etməlidirlər.

---

### 1.3.2.2. Sual raundu

Sual raundu turun bütün sualları üçün ardıcıl olaraq keçirilir. O **1.3.3-cü paraqrafda** ətraflı təsvir edilmişdir.

---

### 1.3.2.3. Turun sonu

Sonuncu sual raundundan sonra aparıcı davamlılığını və növbəti turun başlanma vaxtını bildirməklə fasilə elan edir (əgər sonuncu tur deyilsə).

---

## 1.3.3. Sual raundu

Bu paraqraf NHN üzrə yarışın turunda bir sual raundunu təsvir edir. Sual raundunun gedişində bir sual və ya bir blits-sual oynanılır.

### 1.3.3.1. Sual raundunda hadisələrin ardıcıllığı

Sual raundu aşağıdakı hissələrdən ibarətdir:

- sual raundunun başlanğıcı;
- əyani materialların paylanması (əgər istifadə edilirsə);
- sualın oxunması;
- müzakirə dəqiqəsi;
- komandalardan cavabların yığılması;
- cavabın elan edilməsi.
- Blits-sual üçün sual raundu **1.3.3.8. paraqrafda** təsvir edilmiş xüsusi qaydalar üzrə keçirilir.

### 1.3.3.2. Sual raundunun başlanğıcı

Sual raundunun başlanğıcına işarə aparıcının növbəti sualın nömrəsinin elan edilməsidir.

### 1.3.3.3. Əyani materialların paylanması

Sualda əyani materialların mövcudluğu barədə elanı aparıcı onların paylanmasından əvvəl verməlidir.

Çap və ya başqa əyani materialların paylanması aparıcının göstərişi ilə sekundantlar tərəfindən həyata keçirilir.

Paylama elə təşkil olunmalıdır ki, bütün komandalara əyani materiallarla tanışlığı üçün təxminən bərabər vaxtı təmin edilsin.

### 1.3.3.4. Sualın oxunması

Sualın oxunması aparıcı tərəfindən vərəqdən və ya kompyuterin ekranından həyata keçirilir. Əgər sualda qeyri-mətn elementləri (komandalara paylanılmaq üçün nəzərdə tutulmamış) varsa, aparıcı sualın mətnindəki göstərişlərə müvafiq olaraq onları özü nümayiş etdirir və ya onların nümayiş etdirilməsinə rəhbərlik edir. Qeyri-mətn elementlərinin nümayişi zamanı bütün oyunçuların yerlərini tərk etmədən onlarla tanış olmaq imkanı olmalıdır.

Əksi RK tərəfindən aydın şəkildə qeyd edilməmişdirsə, sualı oxuyarkən aparıcı dırnaq işarələrini və digər durğu işarələrini, həmçinin ayrı-ayrı hərflərin kapitalizasiyasını xüsusi olaraq fərqləndirməməlidir.

Sualın oxunması və qeyri-mətn elementlərin nümayişi zamanı komandalar özlərini mümkün qədər sakit aparmalıdırlar.

Müzakirə vaxtının başlanması siqnalına qədər aparıcı sualın mətnini təkrar edə və ya qeyri-mətn elementinin təkrarən nümayiş etdirilməsinə təşəbbüs göstərə bilər (əgər yarış sinxron deyilsə – bax. Fəsil 3.6.). Müzakirə dəqiqəsi başladıqdan sonra belə təkrarlanmalar – həm tam, həm də hissəvi qadağandır.

---

### 1.3.3.5. Müzakirə dəqiqəsi

Müzakirə dəqiqəsinin başlanğıcına işarə aparıcının «Vaxt» komandasıdır.

Müzakirə dəqiqəsi ərzində oyunçulara digər komandalara mane olmaq, öz yerlərini tərk etmək, öz yerlərinə qayıtmaq, sorğu-informasiya və istənilən növ digər nəşrlərdən istifadə etmək, həmçinin bu sorğu-informasiya və digər nəşrlərə çıxışı təmin edən texnikadan istifadə etmək, istənilən növ rabitə cihazlarından istifadə etmək, oyun masası arxasında əyləşmiş öz komandasının oyunçularından başqa kiminləsə istənilən üsulla ünsiyyət qurmaq qadağandır. Xüsusi olaraq aparıcı və sekundantlarla ünsiyyət qadağandır.

Müzakirə dəqiqəsi başlayandan 50 saniyə sonra, «10 saniyə qaldı» siqnalı verilir.

Müzakirə dəqiqəsi başlayandan 60 saniyə sonra, «müzakirə bitdi» siqnalı verilir. Bununla da müzakirə dəqiqəsi başa çatır.

---

### 1.3.3.6. Komandalardan cavabların yığılması

“Müzakirə bitdi” siqnalından 10 saniyə sonra, “xahiş edirəm, cavabları yığın” siqnalı verilir. Bu siqnala qədər komandanın kapitanı (yaxud digər oyunçu) cavabı kartda yazmalı və onu başı üzərinə qaldırmalıdır. Əgər komandanın cavabı yoxdursa boş kart yenə də qaldırılmalıdır. “Xahiş edirəm, cavabları yığın” siqnalından sonra, kartı aşağı salmaq və ya dəyişdirmək, həmçinin karta yazılmış cavabı dəyişmək olmaz.

“Xahiş edirəm, cavabları yığın” siqnalından sonra, sekundant təhkim olunduğu komandalardan cavab kartlarını yığmağa başlayır və onları OJ yaxud TK-yə ötürür. YTK və aparıcı sekundantların zal boyu hərəkətlərini elə təşkil etməlidir ki, onlar cavab kartlarının yığılmasına minimal vaxt sərf etsinlər. Kartları toplayarkən sekundant elə hərəkət etməlidir ki, ona təhkim edilmiş və cavabları hələ təhvil verməmiş komandaları görə bilsin. Sekundant ona cavabı təhvil vermək imkanına malik olmuş komandaya ikinci dəfə yaxınlaşa bilməz.

Komanda cavab kartını cavabların yığılması zamanı onların yanından keçən sekundanta təhvil verməlidir. Əgər komanda bunu etmirsə sekundant qayda pozuntusu barədə OJ-yə məlumat verir.

Əgər komandanın kapitanı “xahiş edirəm, cavabları yığın” siqnalına qədər kartı qaldırmayıbsa, “xahiş edirəm, cavabları yığın” siqnaldan sonra onu aşağı salıbsa, “xahiş edirəm, cavabları yığın” siqnaldan sonra kart dəyişdirilibsə və ya kartda hər-hansı bir dəyişiklik edilibsə cavab qaydaları pozmaqla təhvil verilmiş hesab edilir. Sekundant qeydə alınmış qayda pozuntusu barədə komandanı və OJ-ni məlumatlandırmalıdır.

Aparıcı və OJ sekundantın iştirakı olmadan cavabın qayda pozuntusu ilə təhvil verilməsi barədə qəbul etmək hüququna malikdir.

Əgər aparıcı komanda tərəfindən cavabların təhvil verilməsi qaydalarının üzürlü səbəblərdən pozulması barədə qərara gələrsə, o zaman sekundanta komandaya yenidən yaxınlaşıb cavab kartını təhvil almağı təklif etmək hüququna malikdir. Bu zaman qayda pozuntusu qeydə alınmır.

Turdan sonrakı fasilə zamanı komandanın kapitanı cavabın qaydaları pozmaqla təhvil verilmiş hesab edilməsinə qarşı etirazla OJ-yə müraciət edə bilər. OJ etirazdakı dəlilləri müzakirə etməlidir. Bütün bunlardan sonra OJ-nin qəbul etdiyi qərar qətidir.

### 1.3.3.7. Cavabın elan edilməsi

Komandaların cavablarının yığılması bitdikdən sonra, aparıcı müəllif cavabını oxuyur. Əgər müəllif cavabında qeyri-mətn elementləri varsa, aparıcı cavab mətnindəki göstərişləri rəhbər tutaraq, onları özü nümayiş etdirir və ya onların nümayişinə rəhbərlik edir.

Sayılma meyarları RK-nin göstərişi, OJ-nin xahişi və ya aparıcının öz mülahizəsinə görə tam və ya qismən elan edilə bilər. Forma və ya məzmununa görə biri-birindən fərqlənən cavabların sayılmasına icazə verən sayılma meyarlarının elan edilməsi tövsiyə edilir.

Şərhlər RK-nin birbaşa göstərişi və ya aparıcının öz mülahizəsinə görə tam və ya qismən elan edilə bilər. Sualın qavranılması üçün zəruri hesab edərsə aparıcı şərhə müstəqil surətdə əlavələr etmək hüququna malikdir.

Sualın mətnində aydın şəkildə göstərilməmiş informasiya mənbələrinin tam və ya qismən elan edilməsi RK-nın göstərişlərinə uyğun olaraq və ya aparıcının öz mülahizəsinə görə mümkündür.

Sual müəllifləri aparıcının mülahizəsinə görə açıqlanırlar.

Cavabın elan edilməsi zamanı aparıcının yol verdiyi səhv, komandaların cavablarının sayılması zamanı OJ üzərinə heç bir öhdəlik qoymur. OJ tərəfindən cavabların sayılması OJ-nin sərəncamında olan müəllif cavabına uyğun olaraq həyata keçirilir.

---

### 1.3.3.8. Blits-sual

Blits-sual preambuladan və hər biri üçün komandalara müəyyən vaxt verilən iki və ya daha çox mini-sualdan ibarətdir. Bütün mini-suallara verilən cəmi vaxt bir dəqiqə təşkil edir. Preambulaya sualın blits-sual olması, mini-sualların sayı və hər bir mini-suallara verilən vaxt haqqında məlumat daxil edilməlidir.

N sayda mini-sualdan ibarət olan blits-sual üçün sual raundu aşağıdakı hissələrdən ibarətdir:

- sual raundunun başlanğıcı;
- əyani materialların paylanması (əgər istifadə edilirsə);
- preambulanın oxunması;
- 1-ci mini-sualın oxunması;
- 1-ci mini-sualın müzakirəsi;
- 2-ci mini-sualın oxunması;
- 2-ci mini-sualın müzakirəsi;

…

- N mini-sualın oxunması;
- N mini-sualın müzakirəsi;
- komandaların cavablarının yığılması;
- komandaların cavablarının işlənməsi.

Əgər blits-sualda paylama əyani materiallarından istifadə olunursa, onlar hansı mini-suallara aid olmasından asılı olmayaraq preambulanın oxunmasına qədər paylanmalıdır.

Blits-sualın bütün mini-suallarına cavablar həmin mini-sualların verilmə ardıcıllığına uyğun olaraq bir kartda yazılır.

Sual raundunun başlanğıcı, cavabların yığılması və cavabların sayılması adi sual üçün müəyyən edilmiş qaydalar üzrə həyata keçirilir.

Mini-sualların oxunması adi suallar üçün müəyyən edilmiş qaydalar üzrə, lakin mini-sualın nömrəsi haqqında məlumat verilməklə həyata keçirilir.

Mini-sualların müzakirəsi adi suallar üçün müəyyən edilmiş qaydalara uyğun şəkildə həyata keçirilir, lakin cari blits-sualda cari mini-sual üçün ayrılmış vaxt çərçivəsində davam edir. Hər bir mini-sualın müzakirəsinin başlanğıcına işarə aparıcının "Vaxt!" komandası və ya xüsusi səs siqnalıdır. "10 saniyə qaldı" siqnalı blits-sualda istifadə olunmur. Mini-suallar arasında fasilələr nəzərdə tutulmur. Mini-sualın müzakirəsinə ayrılan vaxt bitdikdə "müzakirə bitdi" siqnalı verilir. Komandaların cavablarının yığılması adi qaydalar üzrə "xahiş edirəm, cavabları yığın" siqnalından sonra həyata keçirilir.

## 1.3.4. Sual raundları arasında fasilə

Raundlararası qısa fasilə aparıcının və sekundatların növbəti suala hazırlığı, əyani materialların hazırlanması və paylanması, gecikmiş və ya oyun zalını müvəqqəti tərk etmiş oyunçulara aparıcının icazəsi ilə oyun masalarının arxasında yer tutmaq imkanının verilməsi üçün nəzərdə tutulub.

Raundlararası fasilə zamanı komandanın kapitanı aşağıdakı hüquqlara malikdir:

- blankda sualın və ya komandanın nömrəsinin yazılışında komandanın yol verdiyi səhv barəsində OJ və TK-ni məlumatlandırmaq və bunun operativ olaraq düzəldilməsi haqqında xahiş etmək;
- digər komandalar tərəfindən bu Məcəllə və reqlamentin normalarının pozulması hallarına və ya başqa komandaların oyunçularının qeyri-korrekt davranışına və ya onlar tərəfindən oyun zalında qaydanın pozulmasına aparıcının və sekundantların diqqətini yönəltmək.

Bu müraciətlər sekundant vasitəsilə və ya istisna hallarda əgər bu aparıcının və OJ-nin işinə mane olmursa və oyun zalında qaydanı pozmursa, bilavasitə aparıcıya və ya OJ-yə təqdim olunur. Müraciət korrekt formada ifadə edilməlidir.

## 1.3.5. Turlararası fasilə

Turlararası fasilə OJ, TK və AJ-nin fəaliyyət göstərməsi, onlar tərəfindən öz səlahiyyətləri çərçivəsində qərarlar qəbul edilməsi, turun ilkin və yekun nəticələrinin hesablanması, aparıcının, oyunçuların və tamaşıçıların istirahəti üçün nəzərdə tutulmuşdur. Son turun bitmə anından yekun nəticələrin təsdiq edilməsinə qədər olan zaman kəsiyi turlararası fasiləyə bərabər tutulur.

Turlararası fasilə zamanı OJ, sekundantlar və ya OJ-nin özü tərəfindən oyun turunun gedişində və ya o bitdikdən sonra qeydə alınmış qayda pozuntularını araşdırır. OJ oyun qaydalarını pozan komandaya (və ya komandanın oyunçusuna) xəbərdarlıq etmək, cavabın texniki sayılmaması haqqında qərar qəbul etmək, həmçinin **2.3-cü Fəsildə** və yarışın reqlamentində nəzərdə tutulmuş digər tənbeh tədbirini tətbiq etmək hüququna malikdir.

## 1.3.6. Çatımlılığın məhdudlaşdırılması

Bütün oyunçulara zamanın istənilən anında başqa komandaların cavab kartlarına toxunmaq və ya onların məzmunu ilə tanış olmaq qadağan edilir.

Bütün oyunçulara OJ-nin xüsusi icazəsi olmadan zamanın istənilən anında aşağıdakılar qadağandır:

- kart sekundanta təhvil verildikdən sonra, komandasının cavab kartına toxunmaq. Xüsusən, komandanın kapitanı OJ ilə ünsiyyət zamanı öz komandasının cavab kartlarına toxuna bilməz;
- əgər nəticələr cədvəli əl ilə doldurulursa, cədvəlin orijinalına toxunmaq;
- nəticələrin hesablandığı kompyuterdən istifadə etmək.

OJ və TK üzvlərinə, həmçinin aparıcıya digər komandaların cavablarını, hansı komandanın bu və ya digər cavabı verməsi barədə qeydlə oyunçulara bildirməsi qadağandır. Yarışın reqlamenti yalnız bu və ya digər cavabın hansı konkret komanda tərəfindən verilməsini göstərmədən həyata keçirildiyi halda, komandaların cavablarından seçmələrlə tanışlıq imkanına yol verə bilər.

## 1.3.7. Komandaların cavablarının işlənməsi

Cavabların işlənməsi hər bir cavabın sayılması və ya sayılmaması haqqında qərarın qəbul edilməsi, kartların sonradan saxlanması məqsədilə çeşidlənməsi və qəbul olunmuş qərarların nəticələr cədvəllərində təsbit edilməsini ehtiva edir.

Cavabların işlənməsi növbəti suallara cavab kartlarının OJ və TK-ya daxil olması ardıcıllığına müvafiq olaraq həyata keçirilir və konkret sual raunduna bağlı deyil. Ehtiyac olarsa o turlararası fasilə zamanı və ya sonuncu tur başa çatdıqdan sonra da davam edə bilər.

OJ RK-nin göstərişlərini, **2.1-ci Fəsildə** və **2.3.3-cü paraqrafda** müəyyən edilmiş qayda və tövsiyələri və sağlam düşüncəni rəhbər tutaraq kartları iki qrupa bölür: düzgün sayılmış və düzgün sayılmamış cavablar. Cavabları işləyərkən OJ sorğu-informasiya materiallarından istifadə edə bilər.

OJ nəticələrin cədvəldə təsbit edilməsi üçün hər iki kart qrupunu TK-ya verir və ya nəticələri müstəqil şəkildə özü cədvələ daxil edir. Cavabların saxlanılması TK (və ya OJ-nin özü) tərəfindən həyata keçirilir və OJ və AJ üzvləri tərəfindən kartların sonradan yoxlaması imkanına təminat verməlidir.

Cavabın sayılması haqqında OJ-nin qərarı yalnız aşağıdakı hallarda ləğv edilə bilər:

- OJ-in özü tərəfindən – texniki səhvlər aşkar edildikdə;
- OJ və ya YTK tərəfindən – texniki sayılmama qaydasında **(bax. paraqraf 2.3.3.)**.

Cavabın sayılmaması haqqında OJ-nin qərarı aşağıdakı hallarda ləğv edilə bilər:

- OJ-nin özü tərəfindən – texniki səhv aşkar edildikdə;
- AJ – bu cavabın sayılması haqqında qərar qəbul olunduqda.

## 1.3.8. Turun nəticələrinin hesablanması

Turun ilkin nəticələri OJ tərəfindən turdan sonrakı fasilə zamanı hesablanır

və aparıcı yaxud OJ üzvü tərəfindən elan edilir. Turun ilkin nəticələri elan olunana qədər oyunçuların OJ-yə müraciəti qadağandır.

Turun ilkin nəticələri elan olunduqdan sonra, komandanın kapitanı komandanın hansı cavablarının sayılması barədə məlumat almaq məqsədilə OJ-yə müraciət etmək hüququna malikdir. OJ bu məlumatı ona verməyə borcludur. Kapitan həmçinin sualların mətni ilə tanış olmaq hüququna malikdir. Bununla belə, OJ tərəfindən **1.3.6-cı paraqrafda** müəyyən edilmiş çatımlılığın məhdudlaşdırılması tələblərinin pozulması qadağandır.

Əgər komanda kapitanının mülahizəsinə görə texniki səhv olubsa (yəni OJ onun komandasının cavabını nəzərdən qaçırıb və ya səhv oxuyub və s.) o bu barədə OJ-yə məlumat verə bilər ki, bundan sonra OJ ya səhvi aradan qaldırmalı və ya texniki səhvin mövcud olmaması barədə məlumat verməlidir. OJ bu qərarı bütün heyətlə qəbul edir.

Digər oyunçuların OJ-yə müraciət etməsi qadağandır.

Texniki səhvlərin aradan qaldırılmasına sərf olunacaq müddət, bu müddətin bitməsindən sonra turun nəticələrinin hesablanması qaydası və turun nəticələrinin saxlanılmasına görə məsul şəxs yarışın reqlamenti ilə müəyyən olunur.

# 2-ci Hissə. Yarışlarda hakimlik

## Fəsil 2.1. Cavabların sayılma prinsipləri

Ümumi halda sualın şərtlərinə və kontekstinə müəllif cavabından az dərəcədə olmamaqla cavab verən cavab düzgün cavab hesab edilir.

Sualın şərtləri dedikdə, sualın mətnində (və əyani materiallarda) aydın şəkildə ifadə edilmiş cavabın mahiyyətini və formasını müəyyən edən faktlar və məntiqi əlaqələr nəzərdə tutulur.

Sualın konteksti dedikdə, sual mətnində aydın şəkildə qeyd edilməyən, lakin ona (və əyani materiallara) bilavasitə aidiyyatı olan faktlar və həmçinin sualın mətnindən (və əyani materiallardan) birmənalı olaraq irəli gələn məntiqi nəticələr başa düşülür.

## 2.1.1. Düzgün cavab

Komandanın cavabı aşağıdakı şərtlərdən heç olmasa birinə uyğun gəlirsə, o düzgün hesab edilir:

- müəllif cavabı ilə üst-üstə düşür;
- sayılma meyarlarına uyğundur;
- müəllf cavabından daha dəqiqdir (məsələn, müəllif cavabında olan səhvlər yoxdur);
- geniş cavab kimi interpretasiya edilə bilir, yəni müəllif və ya ona ekvivalent cavabı, həmçinin başqa cavab kimi qəbul oluna bilinməyən, sualın məzmunu ilə ziddiyyət təşkil etməyən və kobud faktiki səhvləri olmayan əlavə informasiyanı ehtiva edir;
- əvvəlki şərtlərin heç birinin təsiri altına düşmür, lakin sualın istisnasız olaraq bütün şərtlərinə müəllif cavabına və ya sayılma meyarlarına uyğun gələn cavablara az dərəcədə olmamaqla cavab verir;
- əvvəlki şərtlərin heç birinin təsiri altına düşmür, lakin sual mətninin və/ya əyani materialların məntiqi cəhətdən ziddiyyətsiz alternativ interpretasiyasına cavab verir (məsələn, sual mətnindəki ayrı-ayrı çoxmənalı sözlərin digər mənasına uyğun gəlir).

Blits-suala cavab yalnız və yalnız o halda düzgün hesab edilir ki, ona daxil olan bütün mini-suallara cavablar düzgün hesab edilsin.

## 2.1.2. Səhv cavab

Komandanın cavabı aşağıdakı şərtlərdən heç olmasa birinə uyğun gəlirsə, o səhv hesab edilir:

- sualın mətninin, əyani materialların və ya sayılma meyarlarının onun sualın bütün şərtlərinə (müəllifin şəxsi təcrübəsi daxil olmaqla) və ya sayılma meyarlarına uyğunluğunu təmin edən təfsiri mövcud deyil;
- onda suala birdən artıq cavab var və bu zaman cavablardan heç olmasa biri səhvdir;
- onda başqa cavab kimi qəbul oluna bilən əlavə informasiya var və bu cavab yanlışdır;
- onda cavabın mənasını təhrif edən, kobud faktiki səhvlər olan və ya sualın şərtləri ilə ziddiyyət təşkil edən əlavə informasiya var;

- qrammatik baxımdan müəllif cavabından fərqlənir, bu zaman sualda qrammatik qaydalara riayət olunması aydın şəkildə tələb olunursa və ya bu fərq cavabın mahiyyətini dəyişirsə;
- sualın formasına uyğun deyil (**2.1.1. paraqrafda** nəzərdə tutulmuş hallar istisna olmaqla), yəni sualın şərtlərinə və ya sayılma meyarlarına əsasən tələb olunanı deyil, başqa obyekti, fəaliyyəti, keyfiyyəti və s. təsvir edir;
- formal xarakter daşıyır, yəni aydın və aşkar şəkildə sualın şərtlərinə daxil olan bəzi fakt və məntiqi əlaqələri yalnız təkrar edir.

## 2.1.3. Sayılma meyarlarına uyğunluğun qiymətləndirilməsi

Əgər sayılma meyarlarında sayılmanın mənaya görə həyata keçirilməsi göstərilibsə, onda konkretlik və ya dəqiqlik dərəcəsinə görə müəllif cavabından fərqlənən, lakin mənaca ona yaxın olan cavablar düzgün hesab edilməlidir (məsələn, o qədər də dəqiq olmayan sitatlar).

Əgər sayılma meyarlarında sayılmanın açar sözlərə (söz birləşmələrinə) görə həyata keçirilməsi göstərilibsə, tərkibində açar sözlər (söz birləşmələri) olan və **2.1.2. paraqrafın** təsiri altına düşməyən cavablar düzgün hesab edilməlidir.

## 2.1.4. Mübahisəli cavabların sayılması üzrə tövsiyələr

**2.1.1.** və **2.1.2. paraqrafların** təsiri altına düşməyən cavablar mübahisəli hesab edilir.

### 2.1.4.1. Müəllif cavabından əhəmiyyətsiz dərəcədə fərqlənən cavabların qiymətləndirirlməsi

Komandaların müxtəlif cür şərhlərə əsas verməyən orfoqrafik (sözlərin yazılışında yol verilən səhvlər), punktuasion (durğu işarələrinin, sözlər arasında ara və kapitalizasiyanın qoyulmaması və ya səhv qoyulması), qrammatik (cavabda hal, cins, say, zaman, şəxs, fel forması və digər qrammatik formalardan istifadə zamanı səhvə yol verilməsi), sintaktik (istifadə olunmuş sözönü, bağlayıcılar və digər köməkçi sözlərdə cavabın ümumi mənasını dəyişməyən fərqlər) səhvlər olan cavabları sayılmalıdır, bir şərtlə ki, sualın şərtləri aydın şəkildə qrammatik cəhətdən dəqiq cavab tələb etmir və bu səhvlərin birmənalı şərh çərçivəsində düzəldilməsindən sonra, cavab **2.1.1. paraqrafda** göstərilən sayılma

şərtlərindən birinə uyğun olacaq.
Komandanın müəllif cavabından fərqlənən cavabı əgər bu fərq verilmiş sualın kontekstində sualın mahiyyətini qavramağa imkan verən dərəcədə əhəmiyyətsizdirsə sayıla bilər. Aşağıdakı fərqləri əhəmiyyətsiz hesab etmək tövsiyə olunur:

- translyasion – cavabda xarici dildəki ifadənin yerinə onun tərcüməsindən istifadə və ya əksinə; müəllif cavabından fərqlənən tərcümə variantından istifadə; xarici dildəki ifadənin rus hərfləri ilə transliterasiyası və s. (əgər sualın şərtləri cavab verilməli olan dili aydın şəkildə OJ-yə müəyyənləşdirmirsə).
- semantik – sinonimik ifadələrdən istifadə.

OJ müəllif cavabından digər fərqlilikləri də əhəmiyyətsiz saymaq hüququna malikdir. Lakin, OJ-yə bu hüququndan yalnız tərkibində RK-nın heç olmasa bir nümayəndəsi iştirak etdiyi halda istifadə etmək tövsiyə edilir.

### 2.1.4.2. Müəllif cavabından daha az dəqiq cavabların qiymətləndirilməsi

Müəllif cavabından daha az dəqiq cavabları qiymətləndirərkən OJ və AJ-nin aşağıdakı qaydaları rəhbər tutması tövsiyə olunur:

- daha az dəqiq cavab, bir qayda olaraq, əgər o adi (oyundankənar) vəziyyətdə müəllif cavabı ilə eyni obyekti (fəaliyyəti, keyfiyyəti və s.) əlavə dəqiqləşdirmə tələb etmədən bildirirsə, sayılmalıdır;
- daha az dəqiq cavab, bir qayda olaraq, əgər o adi (oyundankənar) vəziyyətdə bir çox obyekti (fəaliyyəti, keyfiyyəti və s.) bildirirsə və bu çoxluğun istənilən elementi sualın şərtlərinə uyğun gəlirsə, sayılmalıdır;
- daha az dəqiq cavab, bir qayda olaraq, sualın konteksti daha dəqiq cavab verilməsini tələb etmirsə, sayılmalıdır;
- daha az dəqiq cavab, bir qayda olaraq, əgər o adi (oyundankənar) vəziyyətdə bir deyil bir neçə obyekti (fəaliyyəti, keyfiyyəti və s.) bildirirsə və onlardan bir hissəsi sualın şərtlərinə cavab vermirsə, həmçinin tələb edilən elementin bu çoxluğun tərkibindən seçilməsi üçün əlavə dəqiqləşdirmə tələb edilirsə, sayılmamalıdır;
- daha az dəqiq cavab, bir qayda olaraq, sualın konteksti daha dəqiq cavab verilməsini tələb edirsə, sayılmamalıdır;
- daha az dəqiq cavab, bir qayda olaraq, sualın şərtləri aydın şəkildə mütləq dəqiq (maksimal və s.) cavab verilməsini tələb edirsə, sayılmamalıdır. Mütləq dəqiqliyin prinsipial və praktiki olaraq mümkün olmadığı hallar bu qaydadan istisna halını təşkil edir;

- əgər sualın mətnində obyekt və ya subyekti (tarix, yeri, insanı və s.) tapmaq aydın şəkildə tələb edilirsə, bir qayda olaraq, yalnız bu obyektin və ya subyektin adını (geniş mənada) aydın şəkildə nəzərdə tutan cavab sayılmalıdır (il, şəhərin adı, insanın soyadı, təxəllüsü və ya ümumqəbuledilmiş ləqəbi və s.). Təsviri cavab (obyektin və ya subyektin adının əvəzinə onun xüsusiyyətləri verilən cavab) bir qayda olaraq, sayılmamalıdır. Bu qaydada istisna halını məsələn, təsviri cavabın sayılma meyarına uyğun gəlməsi təşkil edir.

---

## 2.1.5. Xüsusi hallar

Cavab kartında mötərizəyə (dairəvi, kvadrat, fiqurlu, əyri və ya bucaqlı) alınmış məlumat, mötərizədən kənarda yazılmış məlumata aidiyyatından, həmçinin ümumiyyətlə kartda mötərizədən kənar məlumatın olub-olmamasından asılı olmayaraq, cavabın tərkib hissəsi olmayan şərh hesab edilir və cavabın sayılmasına və ya sayılmamasına təsir edə bilməz. Mötərizələrin müəllif cavabının əhəmiyyətli tərkib hissəsi olması halı bu qaydadan istisna halını təşkil edir. Komanda tərəfindən təhvil verilmiş, sualın və komandanın nömrəsindən başqa heç bir məlumatı əks etdirməyən blank boş cavab hesab olunur. Boş cavaba bərabər tutulur:

- qaralanmış blank (nə yazılmasından və ya təsvir edilməsindən asılı olmayaraq);
- bütün yazılanların üzərindən xətt çəkilmiş və ya digər formada qaralanmış cavab (əgər cavab üzərindən xətt çəkilmiş cavabı nəzərdə tutmursa);
- mötərizəyə alınmış cavab (əgər sual cavabı məhz mötərizədə tələb etmirsə);
- xətt və ya Ш riyazi simvollu (“boş çoxluq”) şəklində olan cavab, əgər sual cavabın belə simvollarla verilməsini nəzərdə tutmursa.

Əgər sualda hər hansı bir əşyanı tapmaq, cümlədə buraxılan sözləri tamamlamaq və s. tələb olunursa, boş cavabın interpretasiyası məzmun baxımından “belə əşya yoxdur”, “heç bir söz buraxılmamışdır” və s. cavablara bərabər hesab edilir.

---

# Fəsil 2.2. Apellyasiyalar

## 2.2.1. Apellyasiyaların növləri

Hazırkı Məcəllə çərçivəsində apellyasiya dedikdə, müəyyən edilmiş qaydada xüsusi orqan – Apellyasiya Jürisinə verilən sayılmanın dəyişdirilməsi barədə xahiş başa düşülür.

Aşağıdakı növ apellyasiyalar mümkündür:

- cavabın sayılmasına dair apellyasiya - OJ tərəfindən sayılmamış cavabın sayılması barədə komandanın xahişi;
- sualın qeyri-korrektliyinə dair apellyasiya - sual mətnində və ya müəllif cavabında faktiki səhvin olması səbəbilə komanda tərəfindən qeyri-korrekt hesab edilən sualın çıxarılması xahişi.

Redaktor tərəfindən müəyyən edilmiş sayılma meyarları və ya OJ tərəfindən sayılmış müəllif cavabından fərqlənən cavablar sualın qeyri-korrektliyinə dair apellyasiyanın verilməsi üçün əsas ola bilməz.

Sinxron yarışmalarda apellyasiyanın xüsusi növü – aparıcının səhvinə apellyasiyaya icazə verilir **(bax. Fəsil 3.5.)**.

Hər bir növ apellyasiyanın verilməsinə icazə yarışın reqlamentində aydın şəkildə təsbit edilməlidir. Əks təqdirdə apellyasiyalara baxılmır.
Digər növ apellyasiyalar qadağandır.

## 2.2.2. Apellyasiyaların verilməsi

Oynanılan paketin ayrı-ayrı sualları üzrə apellyasiyaları yalnız həmin sualın oynanıldığı cari turda ümumi əsaslarla iştirak etmiş komanda tərəfindən verilə bilər.

Mübahisələndirilən hər bir sual üzrə komanda tərəfindən ayrıca apellyasiya verilməlidir.

Eyni bir suala dair bir neçə komandanın müştərək apellyasiyaları qəbul edilmir. Digər komandanın cavabının sayılmasına dair apellyasiyalar da qəbul edilmir.

Eyni bir suala görə komanda yalnız bir apellyasiya verə bilər və bu zaman onun növü aydın şəkildə göstərilməlidir.

Bütün apellyasiyalar yalnız yazılı şəkildə onları qeydə almalı olan və komandaların adını bildirmədən AJ-nə ötürməli olan AJ katibinə təqdim olunmalıdır.

## 2.2.3 Girov

Reqlament apellyasiyanın verilməsinə görə apellyasiya rədd edildikdə geri qaytarılmayan, pul və ya şərti apelyasiya vahidlərində ifadə olunan apellyasiya girovunu nəzərdə tuta bilər.

İkinci halda yarışdan əvvəl hər bir komandaya müəyyən sayda şərti apellyasiya vahidi verilir. Əgər apellyasiya verilən ana qədər bu apellyasiyaya görə verilməli olan girovu təmin etməyə kifayət edən miqdarda şərti apellyasiya vahidi yoxdursa komandalar apellyasiya vermək hüququna malik olmurlar.

Müxtəlif növ apellyasiyalar üçün fərqli miqdarda girov müəyyən edilə bilər.

Əksi reqlamentdə nəzərdə tutulmayıbsa, istənilən növ apelyasiyanın təmin edilməsi, girovun tam həcmdə komandaya qaytarılması ilə nəticələnir.

Digər növ girovlar (məsələn xal girovu) qadağandır.

## 2.2.4. Apellyasiyaların verilmə müddətləri

Reqlamentdə apellyasiyaların verilməsi üçün komandalara verilən müddət və apellyasiyalara baxılması müddəti təsbit edilməlidir. Apellyasiyaların verilməsi üçün ən azı 15 dəqiqə verilməlidir. Xüsusi hallarda apellyasiyaların verilmə və baxılma müddəti YTK tərəfindən uzadıla bilər.

Növbəti tur başa çatdıqdan sonra aparıcı apellyasiyaların hazırlanmasına ayrılmış vaxtın başlandığını elan edir. Reqlament cari oyun gününün suallarına apellyasiyaların verilməsini həmin günün sonuncu turundan sonraya nəzərdə tuta bilər.

Müntəzəm və sinxron yarışlarda reqlament apellyasiyaların hazırlanması və elektron poçt və ya digər rabitə vasitələri ilə göndərilməsi üçün kifayət qədər müddət nəzərdə tuta bilər.

## 2.2.5. Apellyasiyaya baxılma qaydaları

Eyni bir sual üzrə, həm sualın qeyri-korrektliyinə, həm də cavabın sayılmasına apellyasiyalar varsa, əvvəlcə sualların qeyri-korrektliyinə dair verilmiş bütün apellyasiyalara baxılır; əgər onlar təmin edilərsə cavabın sayılmasına dair apellyasiyalara baxılmır. Bununla bərabər, əksi reqlamentdə

nəzərdə tutulmayıbsa, bu sual üzrə bütün növlərdə apellyasiya vermiş komandaların hər birinin girovu tam həcmdə özlərinə geri qaytarılır.

Eyni bir suala görə bir neçə komanda tərəfindən eyni növ apellyasiyalar verilibsə, AJ bu məsələyə baxıb qurtarmayana qədər digər suallara dair apellyasiyaların baxılmasına keçmədən onlara ardıcıl olaraq və ya məcmu şəkildə baxır. Bu apellyasiya qurtarmamış AJ o biri suallarla bağlı apellyasiyaya baxmır. Digər hallarda AJ apellyasiyalara baxma ardıcıllığının seçimində sərbəstdir.

AJ apellyasiyalara baxdıqda apellyasiyada göstərilən dəlillərlə kifayətlənməyə borclu deyil.

Əgər sualın qeyri-korrektliyinə dair apellyasiya verilməyibsə, AJ öz təşəbbüsü ilə sualı çıxartmaq hüququna malik deyil.

Əgər cavabın sayılmasına dair apellyasiya verilməyibsə, AJ bu cavabı yalnız o halda saymaq hüququna malikdir ki, eyni suala verilmiş başqa bir apellyasiyada həmin cavab (yaxud, AJ tərəfindən bu cavaba ekvivalent hesab edilmiş cavab) sayılmış olsun.

AJ apellyasiyaya baxarkən istinad edilmiş və sual hazırlanan ana mövcud olmamış mənbələrə istinadlarını nəzərə ala bilməz. Məsələn, bu andan sonra internetə yerləşdirilmiş məlumatlar, bu andan sonra icra edilmiş istənilən hərəkətlər barədə sübutlar nəzərə alınmır.

Ehtiyac yarandığı təqdirdə, sualın və/ və ya apellyasiyanın istənilən mübahisəli və ya müəmmalı tərəflərini aydınlaşdırmaq üçün AJ RK-nin yaxud apellyasiya verən komandanın nümayəndəsini dəvət etmək hüququna malikdir; bununla belə AJ və apellyasiya verən komanda arasında ünsiyyətin AJ katibi yaxud YTK tərəfindən təyin edilmiş digər vasitəçi üzərindən apellyasiyanın anonimliyi qorunmaqla təmin edilməsi təkidlə tövsiyə edilir.

AJ-nin xüsusi icazəsi olmadan yarış iştirakçılarının və tamaşaçıların apellyasiyaya baxılmasında iştirakı qadağandır.

## 2.2.6. Cavabın sayılmasına dair apellyasiyaya baxılması

Cavabın sayılmasına dair apellyasiyanın verilməsi üçün əsas komanda tərəfindən verilmiş cavabın müəllif cavabı və ya OJ tərəfindən sayılmış digər cavab ilə yanaşı düzgün olması barədə apellyasiya verən komandanın mülahizəsidir.

Cavabın texniki sayılmaması qaydasında OJ və YTK tərəfindən rədd edilmiş cavabın sayılmasına dair apellyasiyalar baxılması üçün qəbul edilmir (bax. **paraqraf 2.3.3.**).

Cavabın sayılmasına dair apellyasiyalara baxdıqda AJ **2.1. Fəsildə** ifadə edilmiş qayda və tövsiyələri rəhbər tutaraq verilmiş cavabın sualın mətninə və mahiyyətinə uyğunluq dərəcəsini qiymətləndirməlidir. Əgər verilmiş cavab sualın şərtlərinə və kontekstinə tam uyğun gəlirsə yaxud uyğunluq dərəcəsi müəllif cavabından, və ya sayılma meyarına uyğun gələn, yaxud da OJ tərəfindən sayılmış istənilən cavabdan daha az deyilsə, cavab sayılmalıdır.

Apellyasiyanın təmin edilməsi bu cavabın apellyasiya vermiş komandaya və apellyasiya verib-verməməsindən asılı olmayaraq həmin cavabı vermiş bütün komandalara şərtsiz sayılması ilə nəticələnir. Bundan əlavə AJ tərəfindən apellyasiya verən komandanın cavabına ekvivalent hesab edilmiş bütün cavablar da sayılmalıdır.

---

## 2.2.7. Sualın qeyri-korrektliyinə dair apellyasiyaya baxılması

Sualın qeyri-korrektliyinə dair apellyasiyanın verilməsi üçün əsası sualın mətnində və ya müəllif cavabında, həmçinin əyani materialda aşkar edilmiş faktiki səhv təşkil edir. Bundan əlavə, aparıcının sual verilərkən yol verdiyi faktiki səhvlər də qeyri-korrektliyə dair apellyasiya vermək üçün əsasdır.

Sual müəllifinin şəxsi təcrübəsi də daxil olmaqla, sualın istənilən faktının həqiqətə uyğun olmamasının sübutu, həmçinin sual ilə müəllif cavabı arasında sübut edilmiş uyğunsuzluq və ya ziddiyyət faktiki səhv hesab edilir.

Sualın qeyri-korrektliyinə dair apellyasiyalara baxıldıqda AJ aşağıdakı iki prinsipdən birindən irəli gələrək çıxış etməlidir:

1. sualın (və/və ya müəllif cavabının) mətnində hər hansı faktiki səhv olduqda sual qeyri-korrekt hesab edilir;
2. sualın (və/və ya müəllif cavabının) mətnində əhəmiyyətli faktiki səhv olduqda sual qeyri-korrekt hesab edilir.

Əgər turnirin reqlamentində səhvin əhəmiyyəsiz hesab edilə bilməsi aydın şəkildə qeyd edilməmişdirsə AJ 1) prinsipi rəhbər tutmalıdır.

Sualın qeyri-korrektliyinə dair apellyasiyanın qəbul edilməsi üçün əsas ola bilməz:

- sualın şərhində və ya informasiya mənbəyi barədə məlumatlarda aşkar edilmiş səhv və ya qeyri-korrektlik;
- sual və müəllifin sayılma meyarları arasında və ya sual ilə müəllif cavabından fərqlənən lakin OJ tərəfindən sayılmış cavab arasında uyğunsuzluq və ya ziddiyyət.

Bir qayda olaraq sualın qeyri-korrekt hesab edilməsi üçün əsas ola bilməz:

- sualın mətnində metoforik ifadələrdən, hiperbola, litota, metonomik məcazlar, elleptik ifadələrdən (onların qavranılma mənası kifayət qədər birmənalıdırsa), oksimoron, sinekdoxa, canlandırma və şəxsləndirmə və bədii dilin digər məcazlarından istifadə (lakin, dilin qrammatik normalarının kobud pozulması, məsələn “nə?” sualına şərtsiz canlı və ya “kim?” sualına şərtsiz cansız cavabı, sualın çıxarılmasına əsas ola bilər);
- sualın mətnində sözlərin və ifadələrin məcazi mənada və ya onların əsas olmayan mənalarında işlədilməsi;
- sualı fərqli şəkildə şərh etməyə imkan verməyən kiçik qrammatik, punktuasion və orfoqrafik səhvlər;
- sualı fərqli şəkildə şərh etməyə imkan verməyən aparıcı səhvləri (vurğunun başqa hecaya keçirilməsi, sözlərin və ifadələrin yalnış intonasiya fərqləndirilməsi).

Sual mətnində, müəllif cavabında, yaxud əyani materialda sualın müəllif izahına zidd olan səhvlərin (o cümlədən əhəmiyyətli) mövcudluğu halında, bir qayda olaraq, əgər həmin müəllif cavabına uyğun gələn digər düzgün izah (müəllif tərəfindən nəzərdə tutulmamış olsa belə) varsa sual çıxarılmamalıdır.

Sualın qeyri-korrektliyinə dair apellyasiyanın təmin edilməsi turnirdə iştirak edən bütün komandalara bu suala görə sayılmış xalların şərtsiz olaraq sıfırlanması ilə nəticələnir.

Blitsin bir mini-sualında faktiki səhv aşkar edildikdə blits-sual bütünlükdə çıxarılır.

## 2.2.8. AJ-də qərarların qəbul edilməsi

Apellyasiyalar üzrə qərarlar AJ üzvlərinin açıq səsverməsi yolu ilə qəbul olunur. Əksi reqlamentdə nəzərdə tutulmayıbsa, AJ üzvünün istənilən apellyasiya üzrə səsvermədə bitərəf qalmaq hüququ var.

Apellyasiyanın təmin edilməsi şərti qismində səsvermənin aşağıdakı nəticələri çıxış edə bilər (bütün AJ üzvləri arasında, bütün səs verən və ya bitərəf qalmayan AJ üzvləri arasında):

- səslərin sadə çoxluğu (“lehinə” səsləri, “əleyhinə” səslərindən çoxdur);
- səslərin mütləq çoxluğu (AJ üzvlərinin ümumi sayının 50% artığı “lehinə” səs verib);
- apellyasiyanın təmin edilməsinə verilmiş səslərin sayının AJ üzvlərinin ümumi sayına nisbətdə müəyyən edilmiş paydan çoxluğu;
- apellyasiyanın təmin edilməsinə verilmiş səslərin sayının AJ üzvlərinin ümumi sayına nisbətdə müəyyən edilmiş paydan azlığı;
- yekdil qərar.

Reqlament hər bir apellyasiya növü üzrə AJ tərəfindən qərar qəbul edilən zaman bu variantlardan hansının istifadə ediləcəyini təsbit etməli və ehtiyac olarsa müvafiq pay nisbətini müəyyənləşdirməlidir.

AJ iş qaydası nümunəsi **Əlavə V-də** təsvir edilimişdir.

---

### 2.2.9. AJ-nin işinin nəticələri

Qərarlar qəbul edildikdən sonra, AJ onların hər birini apellyasiyanın baxılmasının nəticələrini, onların təmin və ya rədd edilməsinin motivlərini nəzərdə tutan verdikt şəklində ifadə edir. AJ verdikti ifadə edərkən bütün iştirakçılara münasibətdə korrektliyə riayət etməlidir.

AJ verdiktlərini **Əlavə Q-də** göstərilən blanklarda tərtib etmək tövsiyə olunur.

AJ verdiktləri qəti qərarlardır və yenidən baxıla bilməz.

Apellyasiyalara baxıldıqdan sonra AJ verdikləri aparıcı və ya AJ üzvlərindən biri tərəfindən elan edilir.

---

## Fəsil 2.3. İntizam tənbeh tədbirləri

### 2.3.1. İntizam tənbeh tədbirlərinin növləri

Bu Məcəllənin və reqlamentin normalarının pozulması, oyun zalında qayda-nın pozulması və qeyri-düzgün davranışa görə yarış iştirakçılarına və tama-

şaçılara qarşı aşağıdakı intizam tənbeh tədbirləri növlərini tətbiq edilə bilər:

- məzəmmət;
- xəbərdarlıq;
- cavabın texniki sayılmaması;
- turun sonuna qədər zaldan kənarlaşdırma;
- yarışda iştirakdan uzaqlaşdırma;
- cari klub və ya klublar birliyinin keçirdiyi növbəti yarışlarda iştirakdan uzaqlaşdırma (lokal diskvalifikasiya);
- BKA-nın keçirdiyi və BKA lisenziyası əsasında keçirilən növbəti yarışlarda iştirakdan uzaqlaşdırma (total diskvalifikasiya).

## 2.3.2. Məzəmmət və xəbərdarlıq

Məzəmmət yarış iştirakçısının və ya tamaşaçının bu Məcəllənin, reqlamentin normalarının və ya oyun zalında qaydanın tək və əhəmiyyətsiz pozuntusu barədə ona ünvanlanan şifahi iradıdır. Bir yarış iştirakçısına və ya tamaşaçıya elan olunan məzəmmətlərin ümumi sayına məhdudiyyət qoyulmur; lakin təkrar pozuntular daha ciddi tənbeh tədbirlərinin tətbiqi ilə nəticələnə bilər.

Təkrar əhəmiyyətsiz pozuntu halında yarış iştirakçısına və ya tamaşaçıya xəbərdarlıq elan edilə bilər. Bu Məcəllənin, reqlamentin normalarının və ya oyun zalında qaydanın daha ciddi pozuntusu halında xəbərdarlıq ilkin məzəmmətsiz də elan edilə bilər. Xəbərdarlıq elan edildikdən sonra, təkrar yol verilən pozuntular daha ciddi tənbeh tədbirlərinin tətbiqi ilə nəticələnir.

Oyunçuya, komandaya, sekundanta və ya tamaşaçıya məzəmmət və ya xəbərdarlıq elan etmək hüququna aparıcı, OJ üzvü, həmçinin yarışda iştirak edən YTK üzvü və ya nümayəndəsi malikdir. Aparıcıya, OJ, TK və AJ üzvlərinə məzəmmət və xəbərdarlıq yalnız yarışda iştirak edən YTK üzvü və ya nümayəndəsi tərəfindən elan edilə bilər.

## 2.3.3. Cavabın texniki sayılmaması

Komanda tərəfindən sual raundunun gedişində davranış qaydaları və ya cavabların təhvil verilməsi qaydaları pozulduqda komandanın cavabı, hətta düzgün olsa belə, sayılmaya bilər. OJ və ya YTK-nın müvafiq qərarı cavabın texniki sayılmaması adlanır.

Texniki sayılmama üçün əsas ola bilər:

- cavabın səhv komanda və sual nömrəsi ilə və ya ümumiyyətlə bu nömrələrdən hər hansı biri olmayan blankda təhvil verilməsi;
- OJ-nin bundan istifadəyə razılığı olmadan cavabın özlərinin hazırladığı blankda təhvil verilməsi;
- cavab kartının olduqca gec qaldırılması, onun sekundanta verilmə anının ötürülməsi, cavabların toplanması haqqında siqnal verildikdən sonra, qaldırılmış kartın (və ya onun mətninin) dəyişdirilməsi cəhdində ilə ifadə olunan cavab kartının təhvilinin gecikdirilməsi.

Belə hallarda cababın texniki sayılmaması haqqında qərarı OJ qəbul edir. OJ pozuntu halını əhəmiyyətsiz hesab edib, ehtiyac olarsa məzəmmət və ya xəbərdarlıq etməklə kifayətlənərək komandanın cavabını ümumi əsaslarla nəzərdən keçirmək hüququna malikdir.

Əgər bu pozuntular hər hansı üzürlü səbəblərdən baş veribsə, komandanın kapitanı turlararası fasilə zamanı texniki sayılmamanın ləğv edilməsi xahişi ilə OJ-yə müraciət hüququna malikdir. OJ-nin xahişi rədd etməsi qətidir.

Aşağıdakı pozuntular avtomatik olaraq texniki sayılmama ilə nəticələnir:

- sual raundunun gedişində komandanın say və ya sifariş heyəti tərkibinin pozulması;
- sual raundunun gedişində digər komandaların oyunçuları, ehtiyat oyunçular və ya tamaşaçılarla məlumat mübadiləsi; sorğu-informasiya ədəbiyyatı və ya digər çap nəşrlərindən, kompyuter texnikası və ya rabitə vasitələrindən istifadə.

Bu hallarda texniki sayılmama haqqında qərar oyun turunun gedişində OJ tərəfindən qəbul edilir. Əgər pozuntu faktı müvafiq oyun turu bitdikdən sonra üzə çıxarsa, texniki sayılmama haqqında qərar yalnız YTK və ya onun nümayəndəsi tərəfindən və yalnız növbəti tur başlanana qədər qəbul edilə bilər. Həm OJ, həm də YTK-nın qərarı qətidir, onların ləğvinə dair xahişlər baxılması üçün qəbul edilmir.

## 2.3.4. Turun sonuna qədər kənarlaşdırma

Turun sonuna qədər zaldan kənarlaşdırmaya bu Məcəllənin və reqlamentin normalarını, oyun zalında qaydanı dəfələrlə və kobud şəkildə pozan oyunçu, komanda, sekundant və ya tamaşaçı məruz qala bilər.

Turun sonuna qədər kənarlaşdırma ilkin məzəmmət və ya xəbərdarlıq olmadan tətbiq edilə bilər.

Oyunçu turun sonuna qədər kənarlaşdırıldıqda turun gedişində onun ehtiyat oyunçu ilə əvəzlənməsi yol verilməzdir. Kənarlaşdırılmış oyunçunun zalı tərk etməkdən imtina etməsi, bütün komandanın kənarlaşdırılması üçün əsas ola bilər.

Komanda oyun turunun sonuna qədər kənarlaşdırıldıqda, onun turun yerdə qalan suallarına cavabları təhvil verilməmiş sayılır.

Oyunçu və ya komandanın turun sonuna qədər kənarlaşdırılması haqqında qərar OJ tərəfindən operativ olaraq qəbul edilir. Sekundantın və ya tamaşaçının kənarlaşdırılması haqqında qərar həm də aparıcı tərəfindən qəbul edilə bilər.

Kənarlaşdırılmış iştirakçıların və ya tamaşaçıların növbəti turlara buraxılması haqqında qərar YTK və ya onun nümayəndəsi tərəfindən növbəti tur başlanana qədər qəbul edilməlidir.

## 2.3.5. Yarışda iştirakdan uzaqlaşdırma

Komanda və ya yarışın ayrı-ayrı iştirakçıları bu Məcəllənin və reqlamentin normalarını, oyun zalında qaydanı kobud şəkildə pozduqlarına və həmçinin yolverilməz qeyri-korrekt davranışa görə yarışdakı sonrakı iştirakdan uzaqlaşdırıla bilər.

Yarışda iştirakdan uzaqlaşdırma haqqında qərar turlararası fasilə zamanı yarışda iştirak edən bütün YTK üzvləri və ya YTK nümayəndəsi tərəfindən qəbul edilir.

Yarışda iştirakdan uzaqlaşdırma diskvalifikasiya növündə əlavə tənbeh tədbirinin tətdbiqi imkanı ilə yol verilmiş pozuntunun sonradan BKA Etika üzrə Komissiyası, yaxud klub rəhbərliyi və ya klublar birliyi tərəfindən araşdırılmanı nəzərdə tutur.

Oyunçunun yarışda iştirakdan uzaqlaşdırılması növbəti turlarda onun ehtiyat oyunçu ilə əvəzlənməsini istisna etmir.

Komandanın yarışda iştirakdan uzaqlaşdırlması halında onun nəticələrinin ləğv edilməsi məsələsi YTK və ya onun nümayəndəsi tərəfindən ayrıca olaraq həll edilir. Komandanın nəticələri ləğv edilmirsə yerdə qalan turların suallarına onun cavablarına avtomatik texniki sayılmama tətbiq edilir.

## 2.3.6. Diskvalifikasiya

Fiziki şəxsin və ya komandanın yarışlarda iştirakdan uzaqlaşdırılması barədə qərar klub və ya klublar birliyi tərəfindən keçirilən yarışlara (lokal diskvalifikasiya) və yaxud KBA və KBA-ya daxil olan istənilən klub və ya klublar birliyi tərəfindən keçirilən yarışlara (total diskvalifikasiya) şamil edilə bilər.

Fiziki şəxsin diskvalifikasiyası yarışlarda istənilən qismdə iştiraka qadağa qoyulmasını nəzərdə tutur. Bununla yanaşı həmin şəxsin tamaşaçı qismində də iştirakını qadağan edən əlavə qərarın qəbulu da mümkündür.

Komandanın diskvalifikasiyası onun bütün və ya bəzi oyunçularının (qərarda adbaad göstərilirlər) eyni zamanda diskvalifikasiyasını nəzərdə tuta bilər. Diskvalifikasiya olunmamış oyunçular yarışlarda iştirak edə, o cümlədən digər komandaların heyətində oynaya bilərlər.

Total diskvalifikasiya haqqında qərar KBA-nın Etika üzrə Komissiyası tərəfindən qəbul edilir. Lokal diskvalifikasiya haqqında qərar kub və ya klublar birliyinin rəhbərliyi tərəfindən qəbul edilir. Lokal diskvalifikasiya məsələnin sonradan KBA-nın Etika üzrə Komissiyasi tərəfindən baxılmasını və total diskvalifikasiya barədə qərarın qəbul edilməsini istisna etmir.

Diskvalifikasiya barədə qərar qəbul edilərkən onun hansı müddət üçün nəzərdə tutulduğu qeyd edilməlidir. Müstəsna hallarda müddətsiz diskvalifikasiya mümkündür.

## 2.3.7. İntizam tənbeh tədbirlərinin yüngülləşdirilməsi və ləğv edilməsi

Yarış iştirakçısına və ya tamaşaçıya elan edilmiş məzəmmət və ya xəbərdarlıq yarış bitdikdən sonra ödənilmiş hesab edilir.

Diskvalifikasiyaya məruz qalmış oyunçunun və ya komandanın vəsatəti ilə bu tənbeh tədbirini tətbiq etmiş orqan diskvalifikasiyanın müddətini azaltmaqla və ya onu ləğv etməklə öz qərarına yenidən baxmaq hüququna malikdir. Vəsatət diskvalifikasiya müddətinin ən azı yarısı, müddətsiz diskvalifikasiya üçün isə onun başlanmasından ən azı 1 il keçdikdən sonra verilə bilər. Bundan əlavə diskvalifikasiyaya məruz qalmış şəxslərin bu barədə qərardan KBA-nın yuxarı strukturlarına (klublar birliyinə, KBA-nın Etika üzrə Komissiyasına. KBA-nın İdarə Heyətinə) şikayət vermək hüququ var. Yeni halların aşkara çıxarılması zamanı diskvalifikasiyanı tətbiq etmiş

orqan, yaxud KBA-nın Etika üzrə Komissiyası məsələnin araşdırılmasına qayıtmaq və bu tənbehin tətbiq ediməsi barədə qərarı ləğv etmək hüququna malikdir.

İntizam tənbeh tədbirinin verilməsi barədə əvvəllər qəbul edilmiş qərarların ləğvi zamanı artıq başa çatmış yarışın cavablarının texniki sayılmaması barədə qərara heç bir halda yenidən baxıla bilməz və yarışın nəticələri təftişə məruz qala bilməz.

# 3-cü Hissə. NHN üzrə yarışların təşkil edilməsi

## Fəsil 3.1. Ümumi müddəalar

Bütün yarışlar birdəfəlik və müntəzəm növlərə bölünə bilər. Keçirilməsi zamanı oyun günləri arasında (yəni turların keçirildiyi günlər arasında) uzunmüddətli (bir sutkadan çox) fasilələr olmayan yarışlar birdəfəlik yarış hesab edilir - əks təqdirdə yarış müntəzəm hesab edilir. Bundan asılı olmayaraq yarışlar həmçinin bir və çox mərhələli olurlar. Keçirilməsi zamanı müəyyən mərhələlərdən (bir və ya ardıcıl olan bir neçə turlardan) sonra yarışın sonrakı gedişinə təsir edən aralıq nəticələrin hesablandığı yarış çox mərhələli hesab edilir.

Yarışlar seriyası dedikdə, hər biri üçün qaliblərin, mükafatçıların müəyyənləşdirilməsi və yerlərin tam bölüşdürülməsi ilə müşayət olunan ayrıca nəticələrin hesablanması həyata keçirilən və bundan əlavə seriya-ya daxil olan bütün yarışlarda komandaların iştirakı üzrə ümumi nəticələrin də hesablandığı yarışların məcmusu başa düşülür.

Nəticələri komandaların digər yarış və yarışlar seriyasına iştirakına təsir edən yarışlar və yarışlar seriyaları seçim yarışları adlanır.

## Fəsil 3.2. Yarış reqlamenti və onun hazırlanmasına dair tövsiyələr

Yarışın reqlamenti yarışın keçirilməsinin qayda və şərtlərini dəqiqləşdirir. Yarışların reqlamenti bu Məcəllədə nəzərdə tutulmuş qaydalara zidd ola bilməz (lakin ona daxil edilmiş tövsiyələrə riayət etməyə bilər).

Yarışın reqlamenti onun başlamasından öncə tərtib edilir və yarışın gedişi zamanı dəyişdirilə bilməz. Reqlamentin yarışlarda iştirak etmək istəyən bütün komandaların diqqətinə əvvəlcədən çatdırılması zəruridir.

Yarışın gedişi zamanı reqlament komanda kapitanlarının sorğusu əsasında turlararası fasilə zamanı onlara təqdim olunmalıdır.

Yarışın reqlamenti ehtiva etməlidir:

- yarışın adı və statusu, komandaların yarışa buraxılması qaydaları haqqında məlumatı;
- yarışların formatını – hər bir oyun turunda sualların sayı və hər bir oyun turuna (mərhələyə) buraxılışın şərtləri də daxil olmaqla bütün turların və mərhələlərin tam və dəqiq təsvirini;
- hər bir turun, hər bir mərhələnin və bütövlükdə yarışın nəticələrinin hesablanması sisteminin tam təsvirini;
- yarışda apellyasiyalara icazə verilib-verimməməsi və növü, icazə verilirsə apellyasiyanın verilməsi qaydası, apellyasiya girovu, AJ-da qərarların qəbulu prinsipləri barədə məlumatları;
- bu Məcəlləyə görə reqlamentdə ehtiva edilməli olan digər məlumatları.

---

# Fəsil 3.3. Yarışlarda yerlərin bölüşdürülməsi

## 3.3.1. Yerlərin bölüşdürülməsi sistemləri

Əksər yarış sxemlərində yerlərin bölüşdürülməsi sistemi (YBS) iki ünsürdən ibarətdir: ayrıca turda yerlərin bölüşdürülməsi sistemi (ATYBS) və turların nəticələrinə görə hesablanma sistemi (TNHS). Əgər yarış bir turdan ibarətdirsə YBS yalnız ATYBS-dən ibarət olur.

Hər bir ATYBS OJ və AJ fəaliyyətinin nəticələrinə görə xeyrinə daha çox cavab sayılmış komandanın daha yüksək yer tutmasına əsaslanmalıdır. Bu şərti ödəməyən ATYBS yol verilmir. Bu zaman xeyrinə eyni sayda cavab sayılmış iki və ya daha artıq komanda əlavə göstəricilərin (ƏLG) köməyi ilə müvafiq yerlər üzrə bölüşdürülə bilərlər. ATYBS-də ƏLG reytinq, yarışın reqlamenti ilə əvvəlcədən müəyyənləşdirilmiş suallar altçoxluğunda komandaların nəticələri və “atışma” ola bilər. Lakin ATYBS-də ƏLG-dən istifadə edilməməsi və belə hallarda komandaların müvafiq yerləri bölüşdürməsinin qeydə alınması tövsiyə edilir.

Hamılıqla TNHS iki növə bölünür. Birinci növ TNHS nəticələrin hesablanması zamanı yarışın turlara bölünməsini nəzərə alır, ikinci növ TNHS isə nəzərə almır. Birinci halda TNHS aşağıdakı tələbə cavab verməlidir: əgər A və B komandaları eyni turlarda iştirak etmişdirsə və A komandası bütün turlarda B komandasından zəif oynamamışdırsa, o, B komandasından aşağı yer tutmalıdır. İkinci halda TNHS-ə, ATYBS-ə irəli sürülən tələblər

irəli sürülür (OJ və AJ fəaliyyətinin nəticələrinə görə xeyrinə daha çox cavab sayılmış komanda daha yüksək yer tutur). Birinci növ TNHS-də ƏLG və/və ya əsas göstərici (ƏG) OJ və AJ fəaliyyətinin nəticələrinə görə hər bir ayrıca turda komandalara sayılmış cavabların sayına və ya komandaların turlarda tutduğu yerlərə və həmçinin turların statistik göstəricilərinə əsaslana bilər. Hər bir hamılıqla qəbul edilmiş TNHS konkret turnir sxeminə uyğun olmur. Konkret turnir sxemləri üçün TNHS-in seçilməsi üzrə tövsiyələr aşağıda göstərilib.

Əsas meyar üzrə iki və ya daha çox komandanın göstəriciləri bərabər olarsa TNHS bu komandaların ƏLG üzrə yerləşdirilməsini nəzərdə tuta bilər. Hamılıqla qəbul edilmiş ƏLG aşağıdakılardır:

- komandanın bütün turlarda tutduğu yerlər (ƏG deyilsə);
- bütün turların nəticəsinə görə komandanın məcmu reytinqi;
- komandanın öncəki mərhələdə tutduğu yer (çoxmərhələli sxem üçün);
- komandanın götürdüyü əlavə sualların sayı (“atışma”);
- komandanın əvvəlcədən müəyyən edilmiş suallar altçoxluğunda gösdərdiyi nəticə (misal üçün, bir sıra turlarda);
- komandanın tapdığı sualların sayı (ƏG deyilsə);
- komandanın hər bir turda götürdüyü sualların sayının, həmin turda iştirakçı komandalar sırasında ən yaxşı nəticəyə nisbətdə orta faizi.

Heç də hər bir ƏLG həm konkret turnir sxemi, həm də konkret ƏG ilə uyğun olmur. Konkret yarış sxemləri üçün ƏLG və ƏG seçilməsi üzrə tövsiyələr aşağıda göstərilmişdir. Bununla yanaşı, mümkün qədər onlarsız keçinmək və bu cür hallarda (mükafat yerlərinin bölüşdürülməsi halları istisna olmaqla) müvafiq komandalar tərəfindən tutduqları yerlərin bölüşdürülməsinin təsbit edilməsi tövsiyə edilir. Birdən artıq ƏLG-dən istifadə edilməsi tövsiyə olunmur.

## 3.3.2. Əsas və əlavə göstəricilər

Bu paraqrafda ATYBS və ya TNHS-ə tətbiq edilən bəzi ƏG və ƏLG xüsusiyyətləri nəzərdən keçirilir.

### 3.3.2.1. Sualların reytinqi

Sualın reytinqi onun çətinlik dərəcəsinin qiymətləndirilməsidir. O, bu düstur ilə hesablanır:

R = N + 1,

burada N – turda iştirak edən və verilən suala cavab verə bilməyən komandaların sayıdır. Turnirin reytinq hesablanan distansiyasında tapdığı sualların reytinqinin cəmi komandanın reytinqini təşkil edir. ƏG bərabər olduğu halda reytinqi daha çox olan komanda daha yuxarı yer tutur.

---

### 3.3.2.2 Fərqləndirilmiş suallar altçoxluğu

Turdakı sualların bir hissəsi və ya yarışda turların bir hissəsi xüsusi olaraq fərqləndirilə bilər. ƏG eyni olduqda fərqləndirilmiş suallar altçoxluğunda daha yaxşı nəticə göstərmiş komanda daha yuxarı yeri tutur.

Məsələn, ATYBS-də ƏLG komandaların turun sonuncu sualında göstərdiyi nəticə ola bilər. Bu göstəricinin eyni olduğu halda daha əvvəlki sualda göstərilmiş nəticə əsas götürülür və s.

TNHS-də ƏLG komandaların sonuncu turda göstərdiyi nəticə ola bilər. Bu göstəricinin eyni olduğu halda daha əvvəlki turda göstərilmiş nəticə əsas götürülür və s. Bu zaman komandaların turlarda tutduqları yerlərin müəyyən edilməsi üçün istənilən ATYBS istifadə edilə bilər.

---

### 3.3.2.3 “Atışma”

“Atışma” dedikdə paketi xüsusi olaraq hazırlanmış əlavə suallardan ibarət olan əlavə tur başa düşülür. “Atışma” eyni ƏG göstəricisinə malik olan komandalar arasında keçirilir.

“Atışma”dakı raundların sayı və onun keçirilməsinin digər xüsusiyyətləri yarışın reqlamenti ilə müəyyən edilir.

---

### 3.3.2.4. Turlardakı yerlərin cəmi

Əgər komanda turu buraxıbsa onun üçün yerlərin cəminin müəyyən edilməsi zamanı onun buraxdığı tur aşağıdakı üsullardan birinin köməyi ilə nəzərə alına bilər:

- bu komanda üçün yerlərin cəmi buraxdığı tur nəzərə alınmadan sayılır (buraxılan hər bir tur yerlərin cəminə heç nə əlavə etmir);
- hesab edilir ki, komanda turun heç bir sualına düzgün cavab tapmayıb; bu nəzərə alınmaqla komandanın turdakı yeri ATYBS-la

müəyyənləşdirilir (turda heç bir xal toplamayan komandalarla sonuncu yerlərin bölüşdürməsi mümkündür);

- turu buraxan komandalar heç bir xal yığmayan komandalar da daxil olmaqla turda iştirak etmiş bütün komandalardan sonra sonuncu yerləri bölüşdürürlər.

Yerlərin cəminin müəyyən edilməsində bu üsullardan hansından istifadə olunması haqqında məlumat Reqlamentdə öz əksini tapmalıdır. Əgər turlar iştirakçı komandalar tərəfindən hazırlanırsa, növbətçi komandanın buraxdığı tur üçün tətbiq olunan üsul turu buraxmış növbətçi olmayan komandaya tətbiq olunan üsuldan fərqlənə bilər. Əgər yerlərin cəmi əsas göstəricidirsə, yuxarıda göstərilən birinci üsul buraxdığı turu hazırlamayan komanda üçün tətbiq oluna bilməz.

Yerlərin cəminin ƏG və ya ƏLG qismində istifadə olunduğu halda daha az göstəricisi olan komanda üstünlük qazanır. İştirakçı komandalar müxtəlif sayda turlar hazırladıqda yerlərin cəmindən istifadə etmək tövsiyə edilmir.

---

## 3.3.3. Konkret turnir sxemləri üçün TNHS seçilməsi üzrə tövsiyələr

Bu paraqrafda müxtəlif turnir sxemləri üçün daha uyğun olan TNHS-lər təsvir edilir.

---

### 3.3.3.1. Birdəfəlik turnirlər

Tövsiyə olunan ƏG bütün turlar üzrə sualların sayıdır (bütün və ya bəzi turlar iştirakçı komandalar tərəfindən hazırlandığı hallar istisna olmaqla). Mümkün ƏG həmçinin turlarda komandaların yerlərinin cəmidir. Mükafat yerlərinin və ya turnirin növbəti mərhələsinə keçid hüququnu verən yerlərin bölüşdürülməsi zamanı ƏLG qismində “atışmanın” istifadə edilməsi tövsiyə olunur. Turnir çoxmərhələli olduqda birinci mərhələdən başqa bütün mərhələlərdə ƏLG qismində həm də əvvəlki mərhələdəki yer istifadə edilə bilər. Digər mümkün ƏLG – reytinq, yerlərin cəmi (əgər ƏG deyilsə), turlarda götürülmüş maksimal sayda sualların sayına orta faizdir çıxış edə bilər.

---

### 3.3.3.2 Müntəzəm turnirlər

Müntəzəm turnirlər 3 kateqoriyaya bölünür:

- turları bütövlükdə xarici paketlər üzərində qurulur;

- turları bütün iştirakçı komandalar hazırlayır;
- turları bütün iştirakçı komandalar hazırlamır.

Komandaların tutduqları yerlərin hesablanmasına əsaslanan ƏG tövsiyə edilir.

Müntəzəm turnirlərin reqlamenti komandanın göstərdiyi nəticənin onun hazırlandığı sualların keyfiyyətindən asılı olması nəzərdə tutula bilməz.

---

### 3.3.3.3 Xarici paketlərlə yarışların keçirilməsi sxemi

Bu sxem birdəfəlik turnirin sxemi ilə əsasən oxşar olduğundan TNHS-in seçilməsi üzrə tövsiyələr praktiki olaraq eynidir. Yeganə fərq ondan ibarətdir ki, xarici paketlərlə yarışların keçirilməsi sxemi üçün tövsiyə edilən ƏG yerlərin cəmidir.

---

### 3.3.3.4 Turları bütün iştirakçı komandaların hazırladığı sxem

Turları bütün iştirakçı komandaların hazırladığı sxem üçün tövsiyə edilən TNHS turda komandanın göstərdiyi nəticədən asılı olaraq ona müəyyən miqdarda xalların verildiyi sistemdir. Məsələn:

I yer – 10 xal;
II – 6;
III – 4;
IV – 3;
V – 2;
VI – 1;
digər – 0.

Komandalar tərəfindən tutduğu yerlərin bölüşdürülməsi zamanı hər komandaya müvafiq yerlərin tutulmasına görə verilən xalların orta riyazi xalı verilir (minliklərə qədər yuvarlaqlaşdırılmaqla). Oyunda iştirak etməmiş komandalar 0 xal qazanır.

Bu düstürun həm hesablama zonasının genişləndirilməsi (xüsusilə 20 və daha artıq iştirakçı komanda olduqda) həm də verilən xalların konkret dəyərinin dəyişdirilməsi kimi variasiyaları mümkündür. Bu zaman cədvəl üzrə yuxarı hərəkət zamanı qonşu yerləri üçün hesablanan xalların fərqinin azalmaması tələbi mütləqdir.

Turnirdə yerlərin bölüşdürülməsi hər bir komandanın onun oynadığı turlarda topladığı xalların cəmi ilə müəyyən edilir.

Bu TNHS üçün ümumqəbuledilmiş ƏLG turlar üzrə yerlərin cəmidir.

Bu sxem üçün həm də “mikro oyunlar  sistemi” mümkün TNHS sayılır **(bax. paraqraf 3.3.3.5.)**.

---

## 3.3.3.5 Turları bütün iştirakçı komandaların hazırlamadığı sxem

Turları bütün iştirakçı komandaların hazırlamadığı sxem üçün tövsiyə edilən TNHS “mikro oyunlar”  sistemidir.

“Mikro oyunlar” sisteminin mahiyyəti ondan ibarətdir ki, hər komandalar cütlüyü üçün biri digərini məğlub etdiyi turların sayı hesablanır. Beləliklə, iki komanda arasında “mikro oyunun” nəticəsi müəyyən olunur. Məsələn, əgər A komandası B komandasını 5 turda məğlub edibsə (yəni B komandasından daha yaxşı nəticə göstəribsə), B komandası isə A komandasını 4 turda məğlub edibsə, digər turlarda isə onlar eyni nəticə göstəriblərsə, A və B komandaları arasındakı “mikro oyun”un nəticəsi 5:4 olur və A komandası qalib gəlir. Əksi reqlamentdə nəzərdə tutulmayıbsa, A və B komandalarının birinin hazırladığı tur onlar arasındakı “mikro oyunda” nəzərə alınmır. Əgər turu hər iki komanda keçirirsə, həmin tur “mikro oyunun” nəticələrinə hər-hansı bir təsir göstərmir.

Əgər yarışda N komanda iştirak edirsə, onların hər biri üçün N-1 “mikro oyun” nəzərdə tutulur. Komanda hər “mikro oyunda” qalibiyyət üçün 2 xal, heç-heçə üçün 1 xal, məğlubiyyət üçün 0 xal alır. Bu xalların cəmi “mikro oyunlar sistemi” üzrə yerlərin bölüşdürülməsində əsas göstərici sayılır.

“Mikro oyunlar sistemi”nin növlərindən bir “nano oyunlar sistemidir”, burada hər bir komanda üçün ayrıca turlarda tapdığı düzgün cavabların cəmi hesaba alınır. Bu zaman hazırlanmasında cütlüyün hər hansı bir komandasının iştirak etdiyi turlar onlar arasındakı “nano oyunda” nəzərə alınmır.

Turları bütün iştirakçı komandaların hazırlamadığı sxemlərdə **3.3.3.4. paraqrafda** təsvir edilmiş xalların hesablanması sistemi istifadə edilməsi mümkündür. Bu halda turu keçirən komanda oynadığı bütün turlardakı nəticələrinin ortalama qiymətinə bərabər əlavə xallar alır.

Bu TNHS üçün tövsiyə edilən ƏLG turlarda götürülmüş maksimal sual sayına orta faizdir.

# Fəsil 3.4. Oyunçuların turnirlərdə iştirakı

Bu fəsildə göstərilmiş tələblər yüksək səviyyəli turnirlərin və turnirlər seriyasının keçirilməsi zamanı məcburidir **(bax. Fəsil 3.6.)**. Turnirin və ya turnirlər seriyasının reqlamentində iştirakçı komandaların heyəti ilə bağlı əlavə məhdudiyyətlər, o cümlədən oyunçuların yaşı, yaşayış yeri və digər turnirlərdə iştirakı ilə bağlı məhdudiyyətlər nəzərdə tutula bilər.

## 3.4.1. Komandanın sifariş heyəti

Turnir və ya turnirlər seriyasında iştirak edən komandanın sifariş heyətinə 9-dan artıq olmamaqla oyunçu daxil edilə bilər. Turnirin (turnirlər seriyasının) reqlamenti komandanın heyətinə daxil olan oyunçuların daha aşağı maksimal sayını müəyyən edə bilər.

Birdəfəlik turnirlərdə bütün oyunçular turnir başlamamışdan öncə komandanın kapitanı tərəfindən YTK verilən sifariş vərəqəsinə daxil edilməlidir. Birdəfəlik turnirlərdə oyunçuların əlavə olaraq sifariş vərəqəsinə yazılması qadağandır.

Müntəzəm turnirlərdə və turnirlər seriyasında kapitanın YTK verdiyi sifariş vərəqəsinə komandanın ən azı 4 oyunçusu daxil edilməlidir. Oyunçunun əlavə olaraq sifariş vərəqəsinə yazılması onun seriyaya daxil olan ilk dəfə iştirak edəcəyi turun və ya turnirin başlanmasına qədər sifariş vərəqəsinə daxil edilməsi ilə həyata keçirilir.

Birdəfəlik turnirlərdə oyunçu yalnız onu öz sifariş vərəqəsinə daxil etmiş komandanın heyətində iştirak edə bilər, oyunçuların komandadan komandaya keçidi qadağandır. Müntəzəm turnirlərdə və turnirlər seriyasında oyunçuların komandadan komandaya keçidinə reqlamentlə icazə verilə bilər, lakin istənilən komandanın sifariş vərəqəsinə cari müntəzəm turnirdə və ya turnirlər seriyasında iştirak edən digər komandanın sifariş vərəqəsinə daxil olan bir oyunçudan çox olmamaq şərti ilə oyunçunun daxil edilməsinə icazə verilir.

## 3.4.2. Varislik

Əgər komandanın turnirə və ya turnirlər seriyasına buraxılması digər turnir və ya turnirlər seriyasının nəticələri ilə müəyyən edilirsə komandaların sifariş heyətləri varisliyə cavab verməlidirlər, yəni kvalifikasiya

yarışlarındakı sifariş heyətlərinə nisbətdə oyunçuların müəyyən sayının qorunması təmin edilməlidir. Reqlamentə bu say nisbətinin dəqiq kəmiyyəti göstərilməlidir. Bu kəmiyyət 50 %-dən çox olmalıdır. Tövsiyə edilən kəmiyyət 66 %-dir. Turnir və ya turnirlər seriyasının reqlamenti varisliyin əlavə şərtlərini müəyyən edə bilər.

---

## Fəsil 3.5. Sinxron yarışlar

Keçirilməsi zamanı eyni suallar ayrı komanda qruplarına ayrı-ayrı aparıcılar tərəfindən oxunan xüsusi növ yarış sinxron yarış adlandırılır.

Sinxron turnirdə iştirak edən komanda qruplarına suallar, bir qayda olaraq, eyni zamanda oxunur. Ayrı komandalar qrupunun sinxron turnirdə fərqli vaxtda iştirakı yalnız YTK-nin xüsusi icazəsi ilə mümükündür.

Hər bir meydanda (yəni komanda qrupunun oynadığı məkan) YTK nümayəndəsi (YTK üzvü və ya YTK tərəfindən oyun qaydalarının riayət olunmasına nəzarət etmək səlahiyyəti verilmiş şəxs) mütləq iştirak etməlidir. YTK nümayəndəsi aparıcının, AJ katibinin, YTK üzvünün funksiyalarını, o cümlədən cavabın texniki sayılmaması hissəsində OJ funksiyasını icra edə bilər.

Əksi RK göstərişlərində nəzərdə tutulmayıbsa sinxron yarışlarda aparıcının sualı təkrar etmək və ya sualın qeyri-mətn elementlərinin nümayiş etdirmək hüququ yoxdur.

Sinxron turnirlər ayrı-ayrı meydanlarda və fərqli aparıcılar ilə keçirildiyindən, onların reqlamenti aparıcının səhvinə apellyasiya veriməsinə icazə verə bilər. Bu növ apellyasiyanın AJ tərəfindən baxılmasının əsası kimi yalnız aparıcının özünün və ya səhvə yol verilən oyun zalında iştirak etmiş və YTK tərəfindən səlahiyyətləndirilmiş digər şəxsin (məsələn, OJ üzvünün) səhv faktını təsdiq etməsi çıxış edə bilər. Belə təsdiq olmadıqda aparıcının səhvinə apellyasiyalara baxılmır.

Aparıcının səhvinə görə sual yalnız o halda çıxarıla bilər ki, AJ təsdiq etsin ki, aparıcı sualın istənilən sözünün və ya qeyri-mətn elementinin mənasını əhəmiyyətli dərəcədə təhrif etmişdir; və səhv ilə birlikdə oxunmuş sual yarışda iştirak edən komandaların ümumi sayının 2% az olmayan sayda komandaya ünvanlanmış olsun. Əgər AJ fəaliyyətinin nəticələrinə görə meydanlardan birində səhv oxunmuş sualların sayının yarışın suallarının ümumi sayının 10%-dən çoxunu təşkil etməsi müəyyən edilərsə bu meydanda yarışan komandaların nəticələri yarışın ümumi hesabından çıxarılır və səhv ilə birlikdə oxunmuş suallar ünvanlanmış komandaların faizi hesablanarkən bu komandalar nəzərə alınmırlar.

---

## Fəsil 3.6. Yüksək səviyyəli yarışların keçirilməsinə dair tövsiyələr

Yüksək səviyyəli yarışlar dedikdə ilk növbədə iştirakçılara yaş məhdudiyyəti olmayan KBA-nın rəsmi beynəlxalq yarışları, ölkə və iri regionların çempionatları başa düşülür.

Yüksək səviyyəli yarışlar keçirilərkən tövsiyə olunur:

- mikrofon və akustik sistemdən istifadə edilməsi;
- fərqli komandaların istənilən iki oyunçusu arasında ən azı 1 metr məsafənin təmin edilməsi;
- komandaların kapitanlarının fərqləndirici əlamətlə (nişan, sarğı, futbolka və s.) təchiz edilməsi;
- nəticələrin hesablanması üçün kompyuterdən istifadə edilməsi;
- vaxtın avtomatik hesablanması üçün taymerdən (misal üçün, müvafiq proqram təminatı olan kompyuterdən) istifadə edilməsinin təmin edilməsi;
- İnternetə çıxışın təmin edilməsi. Bu zaman müvafiq olaraq apellyasiya vermə müddətləri uzadılmaqla komandaların nümayəndələrinə oyun gününün sonunda və ya turlararası uzunmüddətli fasilə zamanı İnternetdə axtarış imkanının təmin edilməsi tövsiyə olunur;
- komandalara artıq üzərində komandanın və sualın nömrəsi yazılmış cavab kartlarının təqdim edilməsi;
- hər biri ən çoxu 5 komandaya xidmət etməsi şərti ilə sekundant sayının təmin edilməsi;
- oyun turu bitdikdən sonra hər bir komandanın həmin turun suallarının nüsxəsi və nəticələr cədvəli ilə təmin edilməsi.

## Fəsil 3.7. Yarışların keçirilməsinin sadələşdirilmiş proseduru

Yüksək səviyyəli hesab edilməyən yarışlar üçün aşağıdakı sadələşdirilmiş prosedur mümkündür:

- YTK, aparıcı, OJ və AJ funksiyalarının birləşdirilməsi mümkündür;

- AJ tərkibinin 3 nəfərdən az şəxsin olması mümükündür;
- reqlament yarışdan öncə şifahi elan edilə bilər;
- komandaların bilavasitə yarışdan öncə, əvvəlcədən qeydiyyat aparılmadan formalaşdırılması mümkündür. Əgər komandalarda boş yerlər varsa, yarışın başlanmasına yubanmış oyunçular YTK və kapitanın icazəsi ilə həmin yerləri suallar arası fasilə zamanı tuta bilərlər;
- sualın tərkib hissəsi olan mətn və ya digər materialların hər komanda üçün 3 nüsxədən az sayda paylanması mümkündür;
- komandaların masalarsız oynaması mümkündür;
- sekundantların funksiyalarını aparıcı və ya komandaların oyunçuları icra edə bilər.

# Əlavələr

## Əlavə A. Tövsiyə olunan minimal informasiya mənbələri

Yarışların keçirilməsi zamanı turlararası fasilə zamanı və onlar bitdikdən sonra iştirakçıların aşağıdakı sorğu ədəbiyyatına çatımlılığının təmin edilməsi tövsiyə olunur.

- Ən çoxu 5 il əvvəl çap olunmuş Böyük ensiklopedik lüğət və ya onun elektron analoqu və ondan istifadə edilməsi üçün kompyuter.
- Ən çoxu 10 il əvvəl çap edilmiş Ojeqov və Şvedovanın izahlı lüğəti və ya onun elektron analoqu və ondan istifadə edilməsi üçün kompyuter. Onun əvəzinə Yefremovanın rus dili yeni lüğəti istifadə edilə bilər.
- Hər biri ən azı 30 min sözdən ibarət olan və ən çox 10 il əvvəl çap olunmuş ingilis-rus, rus-ingilis, fransız-rus, alman-rus, rus-alman lüğətləri. Kitab nəşrləri arzu olunandır, elektron lüğətlər yalnız əlavə informasiya mənbəyi kimi istifadə edilə bilər.
- Bu Məcəllə və yarışın reqlamenti.
- İnternetə çıxışı olan kompyuter.

## Əlavə B. Cavabların düzgünlüyünün qiymətləndirilməsi nümunələri

Bu nümunələr cavabların düzgünlüyünün qiymətləndirilməsi zamanı **2.1-ci Fəsildə** nəzərdə tutulmuş müddəaların tətbiqini nümayiş etdirir.

*B.1. Sual: 23 yaşlı kişinyovlu məmur doğulduğu yüzilliyin əsas paradoksunu belə ifadə etmişdi: ”Maarifçilik və quldarlıq...”. Siz isə bu kişinyovlu kifayət qədər kiçik məmurun adını və soyadını tapın.*

*Cavab: Aleksandr Puşkin.*

*B.1.a. Qiymətləndirilən cavab: «Alesandr Puşkin».*

Tövsiyə edilən qərar: cavabı saymaq.

Əsas **2.1.4.1. paraqrafdır**, orada deyilir:

«Komandaların müxtəlif cür şərhlərə əsas verməyən orfoqrafik (sözlərin yazılışında yol verilən səhvlər), punktuasion (durğu işarələrinin, sözlər arasında ara və kapitalizasiyanın qoyulmaması və ya səhv qoyulması), qrammatik (cavabda hal, cins, say, zaman, şəxs, fel forması və digər qrammatik formalardan istifadə zamanı səhvə yol verilməsi), sintaktik (istifadə olunmuş sözönü, bağlayıcılar və digər köməkçi sözlərdə cavabın ümumi mənasını dəyişməyən fərqlər) səhvlər olan cavabları sayılmalıdır, bir şərtlə ki, sualın şərtləri aydın şəkildə qrammatik cəhətdən dəqiq cavab tələb etmir və bu səhvlərin birmənalı şərh çərçivəsində düzəldilməsindən sonra, cavab **2.1.1. paraqrafda** göstərilən sayılma şərtlərindən birinə uyğun olacaq».

*B.1.b. Qiymətləndirilən cavab: «Aleksandr Sergeyeviç Puşkin».*

*Tövsiyə edilən qərar: cavabı saymaq.*

Əsas **2.1.1. paraqrafdır**, orada deyilir:

«Komandanın cavabı düzgün hesab edilir,

- geniş cavab kimi interpretasiya edilə bilir, yəni müəllif və ya ona ekvivalent cavabı, həmçinin başqa cavab kimi qəbul oluna bilinməyən, sualın məzmunu ilə ziddiyyət təşkil etməyən və kobud faktiki səhvləri olmayan əlavə informasiyanı ehtiva edir».

*B.2. Sual: Təxminən 4000 il əvvəl Çinin Latsya kəndi qəflətən iki gözlənilməz bəla ilə üzləşdi: sel və zəlzələ. “Vokruq Sveta” jurnalının məlumatına görə, Latsya kəndini adətən hansı Avropa şəhəri ilə müqayisə edirlər?*

*Cavab: Pompeya ilə.*

*Sayılma meyarı: Herkulanum ilə.*

B.2.a. Qiymətləndirilən cavab: «Pompey».

Tövsiyə edilən qərar: cavabı saymaq.

Əsas **2.1.4.1. paraqrafdır**, orada deyilir:

«Komandaların müxtəlif cür şərhlərə əsas verməyən orfoqrafik (sözlərin yazılışında yol verilən səhvlər), punktuasion (durğu işarələrinin, sözlər arasında ara və kapitalizasiyanın qoyulmaması və ya səhv qoyulması), qrammatik (cavabda hal, cins, say, zaman, şəxs, fel forması və digər qrammatik formalardan istifadə zamanı səhvə yol verilməsi), sintaktik (istifadə olunmuş önlük, bağlayıcılar və digər köməkçi sözlərdə cavabın ümumi mənasını dəyişməyən fərqlər) səhvlər olan cavabları sayılmalıdır, bir şərtlə ki, sualın şərtləri aydın şəkildə qrammatik cəhətdən dəqiq cavab tələb etmir və bu səhvlərin birmənalı şərh çərçivəsində düzəldilməsindən sonra, cavab **2.1.1. paraqrafda** göstərilən sayılma şərtlərindən birinə uyğun olacaq».

*B.2.b. Qiymətləndirilən cavab: «Herkulanum ilə».*

Tövsiyə edilən qərar: cavabı saymaq.

Əsas **2.1.1. paraqrafdır**, orada deyilir:

«Komandanın cavabı düzgün hesab edilir,

- sayılma meyarlarına uyğundur».

*B.2.v. Qiymətləndirilən cavab: «Stabiya».*

Tövsiyə edilən qərar: cavabı saymaq.

Əsas **2.1.1. paraqrafdır**, orada deyilir:

«Komandanın cavabı düzgün hesab edilir,

- əvvəlki şərtlərin heç birinin təsiri altına düşmür, lakin sualın istisnasız olaraq bütün şərtlərinə müəllif cavabına və ya sayılma meyarlarına uyğun gələn cavablara az dərəcədə olmamaqla cavab verir».

Bu halda cavab müəllif cavabı ilə müqayisədə sualda qeyd edilmiş faktlara daha az uyğun gəlsə də (çünki jurnalda yalnız Pompeya ilə müqayisə aparılmışdır), sayılma meyarlarına uyğun gələn cavablara az dərəcədə olmamaqla cavab verir.

*B.2.q. Qiymətləndirilən cavab: «Vezuvinin püskürməsi».*

Tövsiyə edilən qərar: cavabı saymamaq.

Əsas **2.1.2. paraqrafdır,** orada deyilir:

«Komandanın cavabı aşağıdakı şərtlərdən heç olmasa birinə uyğun gəlirsə, o səhv hesab edilir:

- sualın formasına uyğun deyil (**2.1.2-ci paraqrafda** nəzərdə tutulmuş hallar istisna olmaqla), yəni sualın şərtlərinə və ya sayılma meyarlarına əsasən tələb olunanı deyil, başqa obyekti, fəaliyyəti, keyfiyyəti və s. təsvir edir».

*B.3. Sual: Vladimir Nabokovun fikrincə, rus emiqrantları sovet hökumətinə çoxlu xarici valyuta qazandırmış bu lirik qəhrəmanın bayağı-mistik çağırışları və meşan təbirinə çox aludə olurdular. Bəs bu qəhrəmanın peşəsi nə idi?*

*Cavab: Doktor (söhbət doktor Jivaqodan gedir).*

*Müəllifin sayılma meyarı: “tibb işçisi”, “həkim” kimi cavablar sayılmır, çünki bu cavablar sualın mahiyyətini əks etdirmir.*

*Qiymətləndirilən cavab: «həkim».*

Tövsiyə edilən qərar: cavabı saymaq.

Əsas **2.1.1. paraqrafdır**, orada deyilir:

«Komandanın cavabı düzgün hesab edilir,

- əvvəlki şərtlərin heç birinin təsiri altına düşmür, lakin sualın istisnasız olaraq bütün şərtlərinə müəllif cavabına və ya sayılma meyarlarına uyğun gələn cavablara az dərəcədə olmamaqla cavab verir».

Bu halda müəllifin sayılma meyarı heç bir əhəmiyyət kəsb etmir, çünki Yuri

Jivaqonun həqiqətən də həkim olması faktına ziddir.
*B.4. Sual: Gilyarovskinin barələrində yazdığı fəhlə burlakları o əməlli-başlı təngə gətirmişdi, məşhur əsərin personajını isə sadəcə bezdirmişdi. Düzdür, burlakların çapaq balığı kimi digər seçimi var idi, qeyd edilən personajın isə seçimi yox idi. Siz isə onları təngə gətirənin və bezdirənin nə olduğunu tapın.*

Cavab: kürü.

*B.4.a. Qiymətləndirilən cavab: «qara kürü».*

Tövsiyə edilən qərar: cavabı saymaq.

Əsas **2.1.1. paraqrafdır**, orada deyilir:

«Komandanın cavabı düzgün hesab edilir,

- müəllf cavabından daha dəqiqdir (məsələn, müəllif cavabında olan səhvlər yoxdur)».

*B.4.b. Qiymətləndirilən cavab: «qırmızı kürü».*

Tövsiyə edilən qərar: cavabı saymamaq.

Əsas **2.1.2. paraqrafdır**, orada deyilir:

«Komandanın cavabı aşağıdakı şərtlərdən heç olmasa birinə uyğun gəlirsə, o səhv hesab edilir:

- onda cavabın mənasını təhrif edən, kobud faktiki səhvlər olan və ya sualın şərtləri ilə ziddiyyət təşkil edən əlavə informasiya var».

*B.5. Sual: Milorad Paviçin “Xəzər lüğəti”ndən iki rahibin dialoqu:*

*Birinci rahib: Bax bu pəncərənin məhəccərinin arxasında gil küplər var. Əgər qapı kilidli olsa idi, sən onlara necə çata bilərdin?*

*İkinci rahib: Mən küpləri sındırıb qırıntıları məhəccərdən içəri keçirərdim, sonra isə hissə-hissə yığardım.*

*Biz sizdən rahiblərin kimlər olduğunu söyləməyinizi istəmirik, onların dialoq gedən anda nə ixtira etdiklərini tapın.*

*Cavab: slavyan əlifbası.*

*Qiymətləndirilən cavab: «əlifba».*
Tövsiyə edilən qərar: cavabı saymaq.

Əsas **2.1.4.2. paraqrafdır**, orada deyilir:

«daha az dəqiq cavab, bir qayda olaraq, sualın konteksti daha dəqiq cavab verilməsini tələb etmirsə, sayılmalıdır».

*B.6. Sual: Məşhur əsərin lap əvvəlində onun bir personajı ilə baş vermiş hadisə təsvir edilir. 2003-cü ilin yanvar ayının əvvəlində həmin əsərin müəllifi ilə baş vermiş eyni hadisə geniş qeyd olunmuşdu. Həmin hadisəni maksimal dəqiqliklə tapın.*

*Cavab: 111-ci ad günü.*

*Qiymətləndirilən cavab: «ad günü».*

Tövsiyə edilən qərar: cavabı saymamaq.

Əsas **2.1.4.2. paraqrafdır**, orada deyilir:

«daha az dəqiq cavab, bir qayda olaraq, sualın şərtləri aydın şəkildə mütləq dəqiq (maksimal və s.) cavab verilməsini tələb edirsə, sayılmamalıdır. Mütləq dəqiqliyin prinsipial və praktiki olaraq mümkün olmadığı hallar bu qaydadan istisnanı təşkil edir».

*B.7. Sual: XIX əsrdə yaşamış bir məşhur qatil məhkəməni inandırmağa çalışırdı ki, o günahsızdır, çünki yeni və bədirlənmiş ay onu ağılsız vəziyyətə çatdırır və öz cinayətlərini o, şüursuz halda törədir. O, məhkəməni inandıra bilmədi, lakin ölüm hökmünün çıxarılmasına rəğmən həmin adam məşhur bir yazıçının sayəsində əbədi həyat qazandı. Cinayətkarın soyadını tapın.*

*Cavab: Hayd.*

*Qiymətləndirilən cavab: «Cekil və Hayd».*

Tövsiyə edilən qərar: cavabı saymamaq.

Əsas **2.1.2. paraqrafdır**, orada deyilir:

«Komandanın cavabı aşağıdakı şərtlərdən heç olmasa birinə uyğun gəlirsə, o səhv hesab edilir:

- onda suala birdən artıq cavab var və bu zaman cavablardan heç olmasa biri səhvdir».

*B.8. Sual: O, öz ömrü ərzində çox şey görmüşdü. Müəyyən anda onun vəziyyəti heç də yaxşı deyildi, lakin o oddan keçəndən sonra onu salamat və gümrah görənlər olmuşdu. Onun qırmızı-qızılı lələkləri var idi və onun lələklərinin problemi görkəmli sehrbazları maraqlandırırdı. O məşhur bir alimin sevimlisi idi və bəzi məlumatlara görə, onun çiyinlərində oturmağı sevirdi. Səhvə yol vermədən həmin alimi tapın.*

*Cavab: Albus Dambldor.*

*B.8.a. Qiymətləndirilən cavab: «Y.P.Nevstruev».*

Tövsiyə edilən qərar: cavabı saymamaq.

Əsas **2.1.2. paraqrafdır**, orada deyilir:

«Komandanın cavabı aşağıdakı şərtlərdən heç olmasa birinə uyğun gəlirsə, o səhv hesab edilir:

- sualın mətninin, əyani materialların və ya sayılma meyarlarının onun sualın bütün şərtlərinə (müəllifin şəxsi təcrübəsi daxil olmaqla) və ya sayılma meyarlarına uyğunluğunu təmin edən interpretasiyası mövcud deyil».

Bu halda belə fakt qismində lələklərin rəngi çıxış edir. Foton tutuquşusu yaşıl rəngli idi.

*B.8.b. Qiymətləndirilən cavab: «Albus Dambldor və ya Y.P.Nevstruev».*

Tövsiyə edilən qərar: cavabı saymamaq.

Əsas **2.1.2. paraqrafdır**, orada deyilir:

«Komandanın cavabı aşağıdakı şərtlərdən heç olmasa birinə uyğun gəlirsə, o səhv hesab edilir:

- onda suala birdən artıq cavab var və bu zaman cavablardan heç olmasa biri səhvdir».

*B.9. Sual: Bu yunan sözü iki sözdən törəmişdir. Onlardan biri “boyunca gedən”, digəri isə “müstəvi” kimi tərcümə edilir. Həmin yunan sözündə yalnız 4 samit hərfin işlədildiyini və onlardan ikisinin üç dəfə təkrarlandığını nəzərə alıb, söhbətin hansı sözdən getdiyini tapın.*

*Cavab: parallelepiped.*

*Qiymətləndirilən cavab: «paralellepiped».*
Tövsiyə edilən qərar: cavabı saymamaq.

Əsas **2.1.2. paraqrafdır**, orada deyilir:

«Komandanın cavabı aşağıdakı şərtlərdən heç olmasa birinə uyğun gəlirsə, o səhv hesab edilir:

- qrammatik baxımdan müəllif cavabından fərqlənir, bu zaman sualda qrammatik qaydalara riayət olunması aydın şəkildə tələb olunursa və ya bu fərq cavabın mahiyyətini dəyişirsə».

*B.10. Sual: Danışırlar ki, Sergey Eyzenşteyndən onun hərbi ixtisasını soruşanda, o, iki sözdən ibarət cavab vermişdi. Son zamanlardan başlayaraq bu “ixtisası” cütdırnaqlı bir heyvana aid etmək mümkün deyil. Bu iki sözü yazın.*

*Cavab: hərəkətli hədəf.*

*Qiymətləndirilən cavab: “hədəf (hərəkət edən)”.*

Tövsiyə edilən qərar: cavabı saymamaq.

Əsas **2.1.5. paraqrafdır**, orada deyilir:

«Cavab kartında mötərizəyə (dairəvi, kvadrat, fiqurlu, əyri və ya bucaqlı) alınmış məlumat, mötərizədən kənarda yazılmış məlumata aidiyyatından, həmçinin ümumiyyətlə kartda mötərizədən kənar məlumatın olub-olmamasından asılı olmayaraq, cavabın tərkib hissəsi olmayan şərh hesab edilir və cavabın sayılmasına və ya sayılmamasına təsir edə bilməz. Mötərizələrin müəllif cavabının əhəmiyyətli tərkib hissəsi olması halı bu qaydadan istisna halını təşkil edir».

*B.11. BİRİNCİnin və İKİNCİnin fəaliyyətinə həsr edilmiş kitablar sual müəllifinin şəxsi kitabxanasında yanaşıdırlar. Birinci bütün dünyada məşhur olan avropalıdır. İkinci isə demək olar ki, hər bir rusiyalıya məlumdur. Bu adamların soyadları ancaq bir hərflə fərqlənirlər. Hər ikisinin kim olduğunu tapın.*

*Cavab: Dali (Дали), Dal (Даль).*

*Qiymətləndirilən cavab: Hegel (Гегель), Qoqol (Гоголь).*

Tövsiyə edilən qərar: cavabı saymamaq.

Əsas **2.1.2. paraqrafdır**, orada deyilir:
«Komandanın cavabı aşağıdakı şərtlərdən heç olmasa birinə uyğun gəlirsə, o səhv hesab edilir:

- sualın mətninin, əyani materialların və ya sayılma meyarlarının onun sualın bütün şərtlərinə (müəllifin şəxsi təcrübəsi daxil olmaqla) və ya sayılma meyarlarına uyğunluğunu təmin edən interpretasiyası mövcud deyil».

Nəzərdən keçirilən cavabın sayılması səhv olardı, çünki sual müəllifinin kitab rəfində Hegel və Qoqolun kitabları yanaşı deyillər.

*B.12. Kiçik qayışlardan hörülmüş və dəstəyə bərkidilmiş bir kəndir London arxeologiya institutunun xeyrinə keçirilən hərraca çıxarılmışdı. Bu qurğu tarixi əhəmiyyətə malik olmasa da, arxeologiyanın populyarlaşdırılmasında onun rolu danılmazdır. Siz isə onun kimin əlində təhlükəli silaha çevrildiyini tapın.*

*Cavab: İndiana Cons.*

*Qiymətləndirilən cavab: Harrison Ford.*

Tövsiyə edilən qərar: cavabı saymaq.

Əsas **2.1.1. paraqrafdır**, orada deyilir:

«Komandanın cavabı düzgün hesab edilir,

- əvvəlki şərtlərin heç birinin təsiri altına düşmür, lakin sual mətninin və/ya əyani materialların məntiqi cəhətdən ziddiyyətsiz alternativ interpretasiyasına cavab verir (məsələn, sual mətnindəki ayrı-ayrı çoxmənalı sözlərin digər mənasına uyğun gəlir)».

*B.13. Yazıçı Vladimir Boqoraz danışırdı ki, bir dəfə bir liman şəhərinin bir mehmanxanasında eyni zamanda Jerebtsov və Kobilin soyadlı qonaqlar məskunlaşmışdı. Bu hansı şəhərdə baş vermişdi?*

*Cavab: Taqanroqda.*

*Qiymətləndirilən cavab: liman şəhərində.*

Tövsiyə edilən qərar: cavabı saymamaq.

Əsas **2.1.2. paraqrafdır**, orada deyilir:

«Komandanın cavabı aşağıdakı şərtlərdən heç olmasa birinə uyğun

gəlirsə, o səhv hesab edilir:

- formal xarakter daşıyır, yəni aydın və aşkar şəkildə sualın şərtlərinə daxil olan bəzi fakt və məntiqi əlaqələri yalnız təkrar edir».

*B.14. “Maksim Qorkiyə, Sorrentoda”- 20-ci illərdə bir məşhur suala belə cavab verirdilər. Bəs sualın müəllifi kimdir?*

*Cavab: Nikolay Alekseyeviç Nekrasov (söhbət «Rusiyada kim yaxşı yaşayır?» sualından gedir)*

Qiymətləndirilən cavab: Nekrasov.

Tövsiyə edilən qərar: cavabı saymaq.

Əsas **2.1.4.2. paraqrafdır**, orada deyilir:

«daha az dəqiq cavab, bir qayda olaraq, əgər o adi (oyundankənar) vəziyyətdə müəllif cavabı ilə eyni obyekti (fəaliyyəti, keyfiyyəti və s.) əlavə dəqiqləşdirmə tələb etmədən bildirirsə, sayılmalıdır».

*B.15. Don Kixot, Til Ulenşpigel, Romeo və Cülyettanın ölməz obrazları bu almaniyalını poema yaratmağa ilhamlandırmışdı. Bizə isə onun qədim dinlərdən birinin banisi haqqında yazdığı əsəri daha çox məlumdur və həmin əsərin birinci hissəsi uzun müddət başqa bir hərəkətin başlanğıcı qismində istifadə edilirdi. Barəsində söhbət gedən əsərin müəllifini tapın.*

*Cavab: Rixard Ştraus.*

*Qiymətləndirilən cavab: Ştraus.*

Tövsiyə edilən qərar: cavabı saymamaq.

Əsas **2.1.4.2. paraqrafdır**, orada deyilir:

«daha az dəqiq cavab, bir qayda olaraq, əgər o adi (oyundankənar) vəziyyətdə bir deyil, bir neçə obyekti (fəaliyyəti, keyfiyyəti və s.) bildirirsə və onlardan bir hissəsi sualın şərtlərinə cavab vermirsə, həmçinin tələb edilən elementin bu çoxluğun tərkibindən seçilməsi üçün əlavə dəqiqləşdirmə tələb edilirsə, sayılmamalıdır».

*B.16. Bu ingilis xanım kişi təxəllüsü altında yazırdı, onun bacıları isə özlərini onun qardaşları kimi qələmə verirdilər. Onun kim olduğunu tapın .*

*Cavab: Şarlotta Bronte!*

*Qiymətləndirilən cavab: Bronte..*
Tövsiyə edilən qərar: cavabı saymaq.

Əsas **2.1.4.2. paraqrafdır**, orada deyilir:

«daha az dəqiq cavab, bir qayda olaraq, əgər o adi (oyundankənar) vəziyyətdə bir çox obyekti (fəaliyyəti, keyfiyyəti və s.) bildirirsə və bu çoxluğun istənilən elementi sualın şərtlərinə uyğun gəlirsə, sayılmalıdır».

Biz görürük ki, Bronte bacılarından hər biri bu sualın cavabı olmaq meyarına uyğun gəlir.

*B.17. Hansı romandan olan ifadə 1944-cü ildə çəkilmiş populyar sovet filminin adına çevrilmişdi?*

*Cavab: «Dünya müharibəsi zamanı cəsur əsgər Şveykin başına gələn macəralar».*

*Qiymətləndirilən cavab: «Cəsur əsgər Şveyk».*

Tövsiyə edilən qərar: cavabı saymaq.

Əsas **2.1.4.2. paraqrafdır**, orada deyilir:

«daha az dəqiq cavab, bir qayda olaraq, sualın konteksti daha dəqiq cavab verilməsini tələb etmirsə, sayılmalıdır».

*B.18. “Doğum” ili - 1851. “Doğum” yeri - Moskva. Diametr - 6 metr 12 santimetr. Bəs nəyin uzunluğu 3 metr 27 santimetr təşkil edir?*

*Cavab: dəqiqə əqrəbi.*

*Qiymətləndirilən cavab:* əqrəblər.

Tövsiyə edilən qərar: cavabı saymamaq.

Əsas **2.1.4.2. paraqrafdır**, orada deyilir:

«daha az dəqiq cavab, bir qayda olaraq, sualın konteksti daha dəqiq cavab verilməsini tələb edirsə, sayılmamalıdır».

Bu halda, sualdan başa düşülür ki, axtarılan obyektin uzunluğu siferblatın radiusundan çox olmalıdır, buna görə də, sualın mənası məhz dəqiqə

əqrəbini nəzərdə tutur.

*B.19. İlk dəfə 1908-ci ildə Londonda ölçülmüş və standart qismində 1921-ci ildə rəsmi təsdiq edilmiş vahidi maksimal dəqiqliklə tapın.*

*Cavab: 42 km 195 m.*

*Qiymətləndirilən cavab: 42 km.*

Tövsiyə edilən qərar: cavabı saymamaq.

Əsas **2.1.4.2. paraqrafdır**, orada deyilir:

«daha az dəqiq cavab, bir qayda olaraq, sualın şərtləri aydın şəkildə mütləq dəqiq (maksimal və s.) cavab verilməsini tələb edirsə, sayılmamalıdır. Mütləq dəqiqliyin prinsipial və praktiki olaraq mümkün olmadığı hallar bu qaydadan istisnanı təşkil edir».

*B.20. Falçının ilk öncəgörməsinə görə o dünya inqilabınacan yaşamalı idi. Daha sonra, trotskiçilərə qarşı təqiblərlə əlaqədar olaraq onun ömrü uzandı. İndi o, Məhşər gününədək yaşamalı idi. Siz isə bu uzunömürlünün ikinci ərinin kim olduğunu tapın.*

*Cavab: Ostap Bender.*

*Qiymətləndirilən cavab: Böyük Kombinator.*

Tövsiyə edilən qərar: cavabı saymaq.

Əsas **2.1.4.2. paraqrafdır**, orada deyilir:

«əgər sualın mətnində obyekt və ya subyekti (tarix, yeri, insanı və s.) tapmaq aydın şəkildə tələb edilirsə, bir qayda olaraq, yalnız bu obyektin və ya subyektin adını (geniş mənada) aydın şəkildə nəzərdə tutan cavab sayılmalıdır (ilin nömrəsi, şəhərin adı, insanın soyadı, təxəllüsü və ya ümumqəbuledilmiş ləqəbi və s.). Təsviri cavab (obyektin və ya subyektin adının əvəzinə onun xüsusiyyətləri verilən cavab) bir qayda olaraq, sayılmamalıdır. Bu qaydada istisna halını məsələn, təsviri cavabın sayılma meyarına uyğun gəlməsi təşkil edir».

# Əlavə V.  AJ iş qaydası nümunəsi

**Bu nümunə AJ-nin işinin reqlamentdə təsbit edilməli olan və ancaq bu məqsədlər üçün nəzərdə tutulan bəzi məqamlarını nümayiş etdirir.**

AJ öz qərarlarını səsvermə yolu ilə qəbul edir. Səsvermə zamanı AJ-nin hər üzvü apellyasiyanın təmin edilməsinin ya lehinə, ya əleyhinə səs verə və ya bitərəf qala bilər. Bu və ya digər səbəblərdən səsvermədə iştirak etməmiş AJ üzvünün səsi avtomatik olaraq “bitərəf” kimi nəzərə alınır.

Cavabın sayılmasına dair apellyasiya onun təmin edilməsinə verilən səslərin sayı, onun rədd edilməsinə verilən səslərin sayından çox olduqda təmin edilir. Əks halda apellyasiya rədd edilir.

Sualın qeyri-korrektliyinə dair apellyasiya onun rədd edilməsinə verilən səslər sıfıra barabər, onun təmin edilməsinə verilən səslərin sayı isə sıfırdan çox olduqda təmin olunur. Əks halda apellyasiya rədd edilir.

Komandanın cavabı ilə sayılmasına dair apellyasiya AJ tərəfindən təmin edilmiş cavab arasında ekvivalentlik müəyyən edilərkən analoji qaydalar tətbiq edilir. AJ-nin hər bir üzvü cavabın ekvivalent sayılmasının lehinə, cavabın ekvivalent sayılmasının əleyhinə səs verə və ya bitərəf qala bilər. Bu və ya digər səbəblərdən səsvermədə iştirak etməmiş AJ üzvünün səsi avtomatik olaraq “bitərəf” kimi nəzərə alınır. Cavabın ekvivalent hesab edilməsinin lehinə verilən səslərin sayı, onun ekvivalent hesab edilməsinin rədd edilməsinə verilən səslərin sayından çox olduqda cavab ekvivalent hesab edilir. Əks halda cavab ekvivalet hesab edilmir. Səsvermə hər bir cavab üçün ayrıca keçirilir.

# Əlavə Q. AJ verdiktlərinin nümunəvi blankları

## F.1. Sualın qeyri-korrektliyinə dair apellyasiya verdiktinin blankı

**Apellyasiyanın kodu __________Apellyasiya verilib sual № ___ tur № ___**

**Apellyant sualdakı aşağıdakı müddəaları qeyri-korrekt hesab edir:**

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
_____________________________________________________________________

**Müəllifin bu müddəalarını AJ-nin sərəncamında olan informasiya mənbələri təsdiq edirmi:**

☐ Təsdiq edir

☐ Təsdiq etmir

☐ Təkzib edir

☐ Tanış olmaq imkanı yox idi

**AJ tərəfindən istifadə edilən informasiya mənbələri:**

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
_____________________________________________________________________

**Nəticə:**

☐ Qeyri-korrektlik yoxdur

☐ Əhəmiyyətsiz səhv

☐ Əhəmiyyətli səhv

**Əsaslandırma:**

________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
_______________________________________________________________________

**AJ qərarı:**

☐ Apellyasiya təmin edilsin

☐ Apellyasiya rədd edilsin

**AJ səsverməsinin nəticələri:** apellyasiyanın təmin edilməsinin lehinə ____ səs, apellyasiyanın təmin edilməsinin əleyhinə ____ səs.

**Turnirin reqlamentindən çıxarışlar:**

*AJ-yə iş qaydasını xatırlatmaq üçün blanklar hazırlanarkən YTK tərəfindən doldurulur.*

## F.2. Cavabın sayılmasına dair apellyasiya verdiktinin blankı

**Apellyasiyanın kodu _________ Apellyasiya verilib sual № ___ tur № ___**

**Apellyant dual cavab kimi aşağıdakı cavabı saymağı xahiş edirlər:**

______________________________________________________________________
_____________________________________________________________________

**Bu cavabın düzgünlüyünü AJ-nin sərəncamında olan informasiya mənbələri təsdiq edirmi:**

☐ Təsdiq edir

☐ Təsdiq etmir

☐ Təkzib edir

☐ Tanış olmaq imkanı yox idi

**AJ tərəfindən istifadə edilən informasiya mənbələri:**

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
_____________________________________________________________________

**Apellyasiya edilən cavab sualın aşağıdakı faktlarına uyğun gəlmir:**

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
_____________________________________________________________________

**Oxşar uyğunluq dərəcəsinə malik cavab sayılma meyarlarında mövcud idimi və ya digər cavab OJ tərəfindən sayılmışdırmı?**

☐ Bəli

☐ Xeyr

**AJ qərarı:**

☐ Apellyasiya təmin edilsin

☐ Apellyasiya rədd edilsin

**AJ səsverməsinin nəticələri:** apellyasiyanın təmin edilməsinin lehinə ____ səs, apellyasiyanın təmin edilməsinin əleyhinə ____ səs.

**Turnirin reqlamentindən çıxarışlar:**

AJ-yə iş qaydasını xatırlatmaq üçün blanklar hazırlanarkən YTK tərəfindən doldurulur.

# Əlavə D. Oyun etikası

Oyunun bütün iştirakçıları - oyunçular, aparıcı, sekundantlar, müxtəlif jürilərin üzvləri, sual müəllifləri və redaktorlar - özündə təkcə qaydalara riayət etməyi ehtiva etməyən ümumqəbul edilmiş etik normalara riayət etməlidir. Bu anlayışa oyunun bütün iştirakçılarına və tamaşaçılarına dostcasına münasibət və qarşılıqlı hörmət və mehriban oyun atmosferinin yaradılmasına can atmaq daxildir.

Aşağıda oyunun bütün iştirakçıları üçün riayət olunması məcburi olan bəzi etik normalar göstərilmişdir. Onların pozulması halları öz işində “Nə? Harada? Nə zaman?” KBA-nın İdarə Heyəti tərəfindən təsdiq olunmuş Əsasnaməni və bu Məcəlləni rəhbər tutan “Nə? Harada? Nə zaman?” KBA-nın Etika Komissiyası (EK) tərəfindən araşdırılır.

- Yarışların keçirilməsi zamanı, xüsusilə tamaşaçıların iştirakı ilə, komandanın üzvləri öz davranışı və xarici görünüşü ilə NHN oyunçularının intellektual elita olması haqqında bərqərar olmuş təsəvvürləri hər cür dəstəkləməlidir. Səliqəsiz paltarda və ayaqqabıda, xüsusi ilə alkoqol və narkotik sərxoşluq vəziyyətində oyuna gəlmək yol verilməzdir. Komandalar yarışda komanda geyimində iştirak etməyə hər cür səy göstərməlidirlər. Bunun üçün xüsusi olaraq ayrılmış yerlərdən kənarda siqaret çəkmək qəti qadağandır.
- Yarışların keçirilməsi zamanı, xüsusilə oyunların açılış və bağlanış mərasimləri zamanı istisna olmadan bütün yarış iştirakçıları oyunların keçirildiyi ölkə, respublika, yaşayış məntəqəsinin rəsmi simvollarına (himn, bayraq və gerb) ehtiram göstərməlidirlər.
- Cari yarış (və ya onun müəyyən hissəsi) üçün seçilmiş sualların müəllifi yarışda (və ya onun müvafiq hissəsində) iştirak etməməli, eyni zamanda bu sualların məzmununu yarışda iştirak etmək istəyən komandaların oyunçularına hər-hansı bir üsulla açıqlamamalıdır. Eyni müddəalar RK, beta-testerlərə, həmçinin bu və digər şəkildə suallarla tanışlığı olan bütün digər şəxslərə aiddir. Əgər belə bir açıqlanma (“sızma”) müəllif və ya redaktordan asılı olmayan səbəblərdən baş vermişdirsə, onlar dərhal ”sızmış” sualların turnirdə səsləndirilməməsi üçün bütün səyləri göstərməlidirlər.
- Komanda nəticələr cədvəlində öz xeyrinə səhv aşkar etdikdə, bu haqda OJ-yə maksimal olaraq tez xəbər verməyə borcludur
- AJ üzvləri apellyasiyalara baxarkən, apellyasiyanın təmin və ya rədd edilməsinin hansı komandaların xeyrinə, hansıların isə ziyanına olması haqqında mülahizələri rəhbər tutmamalıdır.

- Oyun qurtardıqdan sonra komanda öz oyun yerini maksimal dərəcədə təmiz saxlamalıdır.

Oyunun bütün iştirakçıları borcludur:

- şifahi və yazılı formada, həmçinin müxtəlif forum, bloq və internet informasiya səhifələrində oyunun digər iştirakçıları üçün təhqiredici kütləvi ifadələrdən çəkinmək;
- oyunun digər iştirakçılarını düzgün oynamamada sübutsuz ittiham etməkdən çəkinmək;
- oyunun digər iştirakçılarına münasibətdə onları qaydaları və ya etik normaları pozmağa sövq edən hərəkətlərə yol verməmək;
- Mehmanxana, yataqxana, düşərgə və s. yerlərdə yaşama müddətində bu yerlərdə təsbit edilmiş yaşayış qaydalarına riayət etmək və yaxınlıqda yaşayanların tam istirahət etməsinə şərait yaratmağı təmin etməyə səy göstərmək.

Yarışda baş vermiş oyun etikasının pozulması haqqında EK-yə müraciət həm YTK, həm də yarışın istənilən iştirakçısı və ya tamaşaçısı tərəfindən oluna bilər. Digər pozuntular haqqında EK-yə müraciəti pozuntunun istənilən şahidi edə bilər.

# Əlavə E.  Sözlük

Əksi şərtləşdirilməmişdirsə, bu Məcəllədə istifadə edilmiş əsas anlayışlar aşağıdakı mənaları ifadə edirlər:

*müəllif* – paketə daxil edilmək üçün sual hazırlamış şəxs;

*müəllif cavabı* – müəlliflərin mülahizəsinə görə cari suala düzgün cavab;

*apellyasiya* –sayılmanın dəyişdirilməsi barədə Apellyasiya Jürisinə verilən xahiş;

*Apellyasiya jürisi (AJ)* – komandaların apellyasiyalarına baxan kollegial orqan;

*blank* – cavablar üçün kart;

*blits-sual* – cavabları bir blankda təhvil verilən mini-sualların məcmusu;

*aparıcı* – sualların ucadan oxunması və cavabların elan edilməsi vəzifəsi üzərinə qoyulmuş yarış iştirakçısı;

*verdikt* – verilmiş apellyasiya üzrə AJ tərəfindən qəbul edilən qəti qərar;

*sual (NHN sualı)* – təbii dildə ifadə edilmiş və bütün oynayan komandalara eyni zamanda təqdim edilən tapşırıq;

*təsnifat yarışı* – nəticələri komandanın digər turnir (və ya turnirlər seriyasına) buraxılmasına təsir edən turnir (və ya turnirlər seriyası);

*əlavə sual* – “atışma”da verilən sual;

*ƏLG* – turnirdə yerlərin bölüşdürülməsi üçün istifadə edilən əlavə göstərici;

*girov* – apellyasiya verən komandadan tutulan və onun təmin edilməsi halında geri qaytarılan real və ya şərti məbləğ;

*məzəmmət* – yol verilmiş tək və əhəmiyyətsiz pozuntu barədə yarış iştirakçısına və ya tamaşaçıya şifahi irad;

*ehtiyat oyunçu* – cari anda komandanın oyunda iştirak etməyən üzvü;

*sayılma (cavabın sayılması)* – verilmiş cavabın düzgün sayılması;

*tamaşaçı* – yarışı müşahidə edən və onun iştirakçısı olmayan şəxs;

*oyun günü* – bir gün ərzində keçirilən oyun turlarının məcmusu;

*Oyun jürisi (OJ)* – komandaların cavablarının sayılması barədə operativ şəkildə qərar qəbul edən və nəticələr cədvəlinin hazırlayan kollegial orqan;

*Oyun zalı* – yarışların keçirildiyi məkan;

*Oyun masası* – komandalardan birinin oyunçularının yerləşdiyi lazımi sayda oturacaqlarla təmin edilmiş masa;

*oyunçu* – komandanın sifariş heyətinə daxil edilmiş istənilən şəxs;

*komanda kapitanı* – YTK, OJ, AJ və digər rəsmi şəxslərlə təmaslarda komandanın maraqlarını təmsil edən oyunçu;

*cavablar üçün kart* – cavabın yazılıması və OJ-yə təhvil verilməsi üçün nəzərdə tutulmuş müəyyən edilmiş formada vərəqə (sual və komandanın nömrəsi göstərilməklə);

*komanda* – cari yarışda iştirak üçün birləşmiş oyunçular dəstəsi;

*şərh (sualın şərhi)* – sualın və cavabın mahiyyətinin qavranılması, düzgün cavabların axtarış və ya seçilməsi və səhv versiyaların kənarlaşdırılması yolları və s. üçün vacib izahatlar;

*AJ məsləhətçisi* – informasiyanın alınması və ya yoxlanılması üçün AJ tərəfindən cəlb edilən və verilmiş cari apellyasiyanın məzmunu üzrə öz fikrini bildirmək hüququ olan səriştəli şəxs;

*sualın konteksti* - sual mətnində aydın şəkildə qeyd edilməyən, lakin ona (və əyani materiallara) bilavasitə aidiyyatı olan faktlar və həmçinin sualın mətnindən (və əyani materiallardan) birmənalı olaraq irəli gələn məntiqi nəticələr;

*sayılma meyarları* – müəllif cavabı ilə üst-üstə düşməyən cavabların düzgün yaxud səhv olmasının qiymətləndirilməsi üçün əsas olan RK tərəfindən müəyyən edilmiş göstərişlər;

*mini-sual* – blits-suala daxil olan suallardan biri;

*çoxmərhələli turnir* – müəyyən mərhələlərdən sonra onun sonrakı gedişinə təsir edən aralıq nəticələrin hesablandığı turnir;

*sayılmama (cavabın sayılmaması)* – verilmiş cavabın səhv hesab edilməsi;

*ƏG* – əsas göstərici;

*Yarışın təşkilat komitəsi (YTK)* – yarışın hazırlanmasını həyata keçirən və onun keçirilməsinə görə məsul olan orqan;

*cavab (NHN sualına cavab)* – sualın şərtlərinə əsasən tələb olunan məlumatın ifadə edilməsi;

*yekun nəticələr* – sayılma barədə OJ və AJ-nin bütün qərarlarının yekunu üzrə turun (yarışın) nəticələri;

*təsviri cavab* – tələb olunan obyektin (fəaliyyət, keyfiyyət və s.) və ya subyektin adının əvəzinə onun təsviri verilən cavab;

*paket (suallar paketi)* – yarış (və ya onun hissəsi) üçün hazırlanmış və müəyyən ardıcıllıqla düzülmüş suallar dəsti;

*“atışma”* – ƏLG növlərindən biri olan əlavə mini-tur;

*preambula* – a) paketin giriş hissəsi (paketin preambulası); b) blits-sualın verilən bütün mini-suallara aid olan hissəsi (sualın preambulası);

*ilkin nəticələr* – sayılma barədə OJ-nin bütün qərarlarının yekunu üzrə turun nəticələri;

*xəbərdarlıq* – yol verilmiş təkrar və ya daha ciddi pozuntu barədə yarış iştirakçısına və ya tamaşaçıya şifahi irad;

*boş cavab* – komandanın və sualın nömrəsindən başqa heç bir məlumatı əks etdirməyən blank və bunlara bərabər tutulan cavablar;

*birdəfəlik turnir* – oyun günləri arasında davamedici fasilələr (sutkadan çox) olmayan turnir;

*raund (sual raundu)* – ayrıca sualın verilməsi ilə bağlı oyun hadisələrinin ardıcıllığı;

*reqlament (yarış reqlamenti)* – cari yarışa münasibətdə bu Məcəllənin normalarını tamamlayan və konkretləşdirən əsas normativ sənəd;

*müntəzəm turnir* – oyun günləri arasında davamedici fasilələr (sutkadan çox) olan turnir;

*redaktor* – RK üzvü olan şəxs;

*Redaksiya kollegiyası (RK)* – suallar paketini hazırlayan şəxslər qrupu;

*reytinq (sualın reytinqi)* – sualın çətinliyinin kəmiyyət qiyməti;

*AJ katibi* – iştirakçı komandaların apellyasiyalarını qəbul edən və qeydiyyata alan və onları AJ-yə ötürən vasitəçi;

*sekundant* – əyani materialların paylanmasını və sualların cavablarının yığılmasını həyata keçirən aparıcının operativ köməkçisi;

*seriya* – hər biri üçün ayrılıqda nəticələrin hesablanmasından savayı, ümumi nəticələrin də hesablandığı turnirlərin məcmusu;

*TNHS* – turların nəticələrinə görə hesablanma sistemi;

*ATYBS* – ayrıca turda yerlərin bölüşdürülməsi sistemi;

*tester* – ayrı-ayrı sualların və ya bütün paketin yoxlanması və qiymətləndirilməsi üçün RK tərəfindən cəlb edilən şəxs;

*sualın mətni* – sualın aparıcı tərəfindən elan edilən verbal hissəsi;

*Texniki komissiya (TK)* – funksiyası nəticələr cədvəlinin aparılmasında OJ-yə kömək etmək olan yardımçı orqan;

*Texniki sayılmama* – komanda tərəfindən cavabın verilməsi və davranış qaydalarının pozulması ilə bağlı təhvil verilmiş cavabın sayılmasından imtina edilməsi;

*Texniki səhv* – komandanın verdiyi cavabın düzgünlüyünün müəyyən edilməsində OJ-nin iradəvi qərarı olmayan səhvi;

*tur (oyun turu)* – özündə sabit miqdarda raundu birləşdirən yarışın nisbətən müstəqil hissəsi;

*aparıcıya göstərişlər* – sualın mətninin və ya onun ayrıca hissələrinin tələffüzünün və oxunmasının xüsusiyyətlərini izah edən, sualın səsləndirilməyən hissəsi;

*sualın şərtləri* – cavabın mahiyyətini və formasını müəyyən edən və sual mətnində (və əyani materiallarda) aydın şəkildə ifadə edilmiş faktlar və məntiqi əlaqələr;

*formal cavab* – aydın və aşkar şəkildə sualın şərtlərinə daxil olan bəzi fakt və məntiqi əlaqələri yalnız təkrar edən cavab;

*NHN* – komandaların onlara verilmiş suala məhdud vaxt ərzində düzgün cavab tapmaq bacarığında yarışdıqları komanda oyunu;

*“qara qutu”* – müəyyən əşyanı daxilində saxlayan əyani materialın xüsusi növü olan qab.

# TURNİRLƏR HAQQINDA ƏSASNAMƏ

*(BKA Turnir Komissiyasının Qaydaların unifikasiyası üzrə Altkomissiyası tərəfindən hazırlanıb)*

1. Sənədin statusu

1.1. Bu Əsasnamə NHN Məcəlləsinin ikinci nəşrinə (2008) əlavə qismində istifadə edilir. Əsasnamə BKA İdarə heyəti tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir və ləğv edilənə və ya NHN Məcəlləsinin yeni nəşri dərc edilənə qədər qüvvədə qalır.

2. Turnirlərin növləri

2.1. Bu bölmə idman NHN üzrə hal-hazırda mövcud olan turnir növlərini təsvir edir.

2.2. Əyani turnir dedikdə, aşağıdakılardan birinin təmin edilməsi şərtilə, hər bir sualı bir aparıcı tərəfindən eyni zamanda bütün komandalar üçün oxunan turnirlər başa düşülür:

- oyunun istənilən zamanında bütün komandalar eyni bir məkanda olurlar;
- oyunun istənilən zamanında bütün komandalar bir binanın bitişik və ya yaxın məkanlarında olurlar və bu zaman turnirə texniki xidmət göstərilməsi (cavabların işlənməsi, əyani materialların sekundantlar tərəfindən paylanması və s. ) üçün məkanlardan yalnız biri istifadə edilir.

2.3. *Sinxron* turnir dedikdə eyni sualların iki və ya daha çox aparıcının oxuduğu (hər biri ayrı komandalar qrupu üçün ayrı oyun meydanında), və ya bir aparıcının növbə ilə ayrı komandalar qrupu üçün oxuduğu turnirlər başa düşülür. Sinxron turnirlərdə aparıcının səhvinə apellyasiya verilməsinə icazə verilir (NHN Məcəlləsinin 3.5. Fəslinə uyğun olaraq).

2.4. *Qiyabi* turnir dedikdə nə əyani, nə də sinxron olmayan və hər bir sualın yalnız bir aparıcı tərəfindən oxunan turnirlər başa düşülür.

2.5. *Mütləq sinxron* turnir dedikdə sinxron turnirin elə növü başa düşülür ki, orada eyni suallar fərqli komandalar tərəfindən eyni bir zamanda bir neçə dəqiqə fərqi ilə oynanılır.

2.6. *Asinxron* turnir dedikdə sinxron turnirin elə növü başa düşülür ki, orada eyni suallar fərqli komandalar tərəfindən fərqli günlərdə oynanılır və bu zaman fərqli oyun meydanlarında oyunun keçirilməsi vaxtı arasında

interval Moskva vaxtı ilə hesablanan 4 sutka və daha çox ola bilir.

2.7. *Marafon dedikdə digər* hallardan asılı olmayaraq hər bir oyun günündə oynanılan sualların sayı 90 sualdan çox olan (“atışma” sualları hesaba alınmadan) turnirlər başa düşülür.

3. Sualların sayı

3.1. İdman NHN üzrə turnir ən azı 12 sualdan (“atışma” sualları hesaba alınmadan) ibarət olmalıdır.

4. Əlavə göstəricilərin istifadə edilməsi

4.1. Bu bölmənin qaydaları yerlərin bölüşdürülməsi üçün əsas göstərici düzgün tapılmış sualların sayı olan turnirlərə aiddir.

4.2. Aşağıdakı hallar istisna olmaqla 4.1-ci bəndin tələblərinə cavab verən turnirlərdə yerlərin bölüşdürülməsi üçün əlavə göstəricilərdən istifadə edilməsi tövsiyə edilmir:

- çempionun müəyyən edilməsi;
- mükafat yerlərinin bölüşdürülməsi;
- cari turnirin və ya onun bir hissəsinin nəticələrinə görə seçimdən keçmiş komandaları seçimdən keçməmiş komandalardan ayırmaq üçün.

Bütün digər hallarda düzgün tapılmış sualların eyni göstəricisi zamanı müvafiq yerlərin bərabər bölüşdürülməsinin təsbit edilməsi tövsiyə edilir.

4.3. Yerlərin bölüşdürülməsi zəruri olarsa 4.1-ci bəndin tələblərinə cavab verən turnirlərdə “atışma”dan istifadə edilməsi tövsiyə edilir.

Əlavə. İstifadə edilmiş ixtisarlar.

BKA - “Nə? Harada? Nə zaman?” Klublarının Beynəlxalq Assosiasiyası.

NHN - “Nə? Harada? Nə zaman?”.

# Qeydlər

**“Nə? Harada? Nə zaman?”**
**MƏCƏLLƏSİ**

“Nə? Harada? Nə zaman?”
Klublarının Beynəlxalq Assosiasiyası

Turnir Komissiyasının Qaydaların
unifikasiyası üzrə Altkomissiyası

Etika Komissiyası

*(rus dilindən tərcümə)*

---

Redaksiya heyəti layihənin icrasında
göstərdikləri köməyə görə Elçin Abışov,
Leyla Əzimova, Xədicə Abdullayeva,
Cavid Məmmədov və Gülşən Hüseynovaya
təşəkkürünü bildirir.

“QHT NƏŞRİYYATI” tərəfindən
çap edilmişdir.
E-mail: qhtnesriyyati@gmail.com
Tel.: (012) 429 87 85
Mob.: (050) 232 10 95

“Atəşgah İntellektual Oyunlar Klubu” İB
AZ1009, Bakı şəh., Azərbaycan pr. 42a,
Respublika Şahmat Mərkəzi

Tel.: (050) 722 22 11; (050) 722 22 66
info@chgk.az
**www.chgk.az**
**www.facebook.com/pages/Club-of-intellectual-games-Ateshgah/114360435247480**

**Pulsuz paylanılır.**

Bu nəşr ilə oxuculara təqdim edilən Məcəllə intellektual oyunlar hərəkatının əlaqələndirici beynəlxalq təşkilatı olan “Nə? Harada? Nə zaman?” Klublarının Beynəlxalq Assosiasiyasının Turnir Komissiyasının Qaydaların unifikasiyası Altkomissiyası və Etika Komissiyası tərəfindən ilk dəfə 2003-cü ildə açıqlanmış və 2008-ci ildə yeni redaksiyada dərc edilmiş (bax. **http://mak-chgk.ru/rules/codex/**) oyun qaydalarıdır. Məcəllə “Nə? Harada? Nə zaman?”oyunun gedişində yaranan əksər vəziyyətləri və oyunun təşkilinin təfərrüatlarını nəzərdə tutur. 3 hissə, 13 fəsil, 6 əlavədən ibarət olan Məcəllə oyunun iştirakçıları, oyun üçün materiallar və avadanlıqlar, oyunun formatı, yarışlarda hakimlik, yekunların hesablanması, cavabların sayılma prinsipləri, apellyasiya, intizam tənbeh tədbirləri, yarışların təşkili, oyunçuların turnirlərdə iştirakı, yüksək səviyyəli yarışların keçirilməsi üzrə tövsiyyələr, cavabların düzgünlüyünün qiymətləndirilməsi nümunələri, oyun etikası və bu kimi mühüm məsələləri tənzimləyir.

Nəşr Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2013-cü ildə QHT layihələrinin maliyyələşdirilməsi müsabiqəsi üzrə qalib gəlmiş “Nə? Harada? Nə zaman?” intellektual oyununun Məcəlləsinin tərcümə və nəşr edilməsi” layihəsi çərçivəsində “Atəşgah İntellektual Oyunlar Klubu” İctimai Birliyi tərəfindən hazırlanmışdır.